# ƏZİZ QADINLAR, BAYRAMINIZ MÜBARƏK!


RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 52 (8645) BAZAR, 7 mart 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




## Yeni Azərbaycan Partiyası yeni siyasi nümunə ortaya qoydu

Yeni Azərbaycan Partiyasının hər bir qurultayı respublikamızın siyasi-ictimai həyatında böyük hadisə kimi yadda qalır. Bu da təsadüfi deyil. Çünki 29 il əvvəl Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılan YAP ilk gündən cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrilib. 1993-cü ildə Heydər Əliyevin xalqımızın istək və tələbi ilə hakimiyyətə gəlişindən sonra hakim siyasi partiya statusunu alan YAP daim ona göstərilən etimadı doğruldub, hər zaman siyasi proseslərin önündə olub, öz fəaliyyəti ilə dövlətimizin inkişafına, yüksəlişinə layiqli töhfələr verib.

### Ümumxalq etimadının ünvanı

Tarixə ekskurs etsək, bir daha aydın olar ki, Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının siyasi meydana çıxması ölkəmizdə baş verən siyasi-ictimai proseslərin nəticəsi idi. Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və xalqın sınanmış lideri Heydər Əliyevin ətrafında sıx birləşməklə YAP-ı təsis etdilər. Partiya ozamankı iqtidara müxalifətdə idi və bu yola qədəm qoyan insanlar hər addımda hakim dairələrin təzyiqləri ilə üzləşirdilər. Lakin əyilmirdilər, heç bir hədə-qorxu, təhdidlər onların əzmini qıra bilmirdi. Beləliklə, Azərbaycanın işıqlı gələcəyini arzulayaraq bu yola qədəm qoyan insanların iradəsinin ifadəsi kimi vətənpərvərlik, əqidə birliyi, dövlət müstəqilliyi və azərbaycançılıq ideyaları üzərində yaranan YAP tezliklə Azərbaycanın siyasi həyatında liderlik mövqeyinə sahib oldu.

Ümummilli Lider Heydər Əliyev 2003-cü il oktyabr ayının 1-də Azərbaycan xalqına müraciətində İlham Əliyevə, həm də YAP-a yüksək önəm verdiyini qeyd etmiş, xalqa ən düzgün seçim ünvanı kimi məhz İlham Əliyevi və Yeni Azərbaycan Partiyasını göstərmişdir. Həmin il Heydər Əliyev siyasi kursunun layiqli davamçısı kimi prezident seçkilərinə qatılan cənab İlham Əliyevin qələbəsi həm də Yeni Azərbaycan Partiyasının nailiyyəti idi. 2003-cü ildən sonra keçirilən bütün seçkilərin qalibi olan İlham Əliyevin qələbəsi həm də YAP-ın zəfəri, uğurudur. Xüsusilə qeyd etməliyik ki, Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı, onun ölməz ideyalarından güc alan YAP-ın bütün seçkilərdə mütləq qələbə qazanaraq cəmiyyətdəki lider statusunu qoruyub saxlaması təbii qanunauyğunluq kimi nəzərdən keçirilməlidir. Hər bir seçki Azərbaycan xalqının Heydər Əliyev ideallarına sədaqətini, Ulu Öndərin müəyyən etdiyi strateji inkişaf kursunu bu gün də əzmlə həyata keçirən Prezident İlham Əliyevin apardığı siyasətin uğurlarına ümumxalq inamını təcəssüm etdirib. Xalqımız bu siyasətin həyatımıza gətirdiyi nailiyyətlərə, uğurlu sabaha doğru inamla irəliləyən Azərbaycana səs verib.

Ardı 2-ci səh.

## 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik



Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan qadınları milli varlığımızı özündə əks etdirən mədəni dəyərlərimizin əsrlərdən bəri bir bütöv halında qorunub saxlanılmasında misilsiz xidmətlər göstərmiş və həmişə cəmiyyətimizin etibarlı mənəvi dayağı olmuşlar. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, onlar milli dövlət quruculuğu işinin fəal iştirakçıları kimi ölkəmizin sosial-iqtisadi, mədəni və elmi potensialının artırılması üçün qüvvələrini əsirgəmədən tariximizdə dərin iz qoyan fədakar, mübariz və məğrur sələflərindən aldıqları tükənməz mənəvi güc sayəsində bütün sınaqları dəf etmiş, öhdələrinə düşən vəzifələri şərəflə yerinə yetirmişlər.

Azərbaycan qadını mərdlik və mətanət nümayiş etdirərək, dualarla cəbhəyə göndərib qələbə xəbəri ilə yolunu gözlədikləri və yurdumuzun hər qarışını canından əziz bilən bir nəsil yetişdirmişdir. Dövlətçiliyimizə ən böyük töhfə də, heç şübhəsiz, qırx dörd günlük müqəddəs Vətən müharibəsindəki qəhrəmanlığı və şücaəti əsla yaddaşlardan silinməyəcək bu gənc nəsildir. Gözünü açıb Azərbaycanı azad və müstəqil görmüş həmin rəşadətli nəsildir ki, ümidləri doğruldaraq ədalətin bərpa edilməsində, uzun həsrətdən sonra Qarabağın Ana Vətənə qovuşmasında və məğrur xalqımıza hüdudsuz Zəfər sevincinin yaşadılmasında müstəsna payı vardır.

Mən torpaqlarımızın müdafiəsi zamanı canından keçmiş igid oğullarımızın xatirəsini bir daha ehtiramla yad edir, şəhid analarına və xanımlarına, döyüşlərdə sağlamlığını itirmiş hərbçilərimizin ömür-gün yoldaşlarına, Vətənimiz üçün layiqli övladlar böyüdən əsgər analarına ən xoş arzularımı çatdırıram.

İnanıram ki, qurub-yaratmaq əzmi və sosial-mədəni fəallığı ilə seçilən zəngin mənəviyyatlı Azərbaycan qadını cəmiyyətimizin həyatına bundan sonra da yüksək dəyərlər qazandıracaq, bizi qarşıda gözləyən nəhəng quruculuq dövründəki nailiyyətləri ilə müstəqillik salnaməmizə yeni parlaq səhifələr yazacaqdır.

*Dərin hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2021-ci il*

## Vətənin şərəfini ucaldan xanım



Cəmiyyət həyatının bütün sahələrində qadınların üzərinə daima məsuliyyət və böyük öhdəliklər düşür. Cismən zərif və incə, həssas, daxilən səbatlı, mübariz olan qadınlar bu vəzifələri həmişə ləyaqətlə yerinə yetirmişlər.

Bəşəriyyətin inkişafının ayrı-ayrı dönəmlərində qadınlar irqindən, dilindən, dinindən, iqtisadi durumundan asılı olmayaraq, aparıcı qüvvəyə malik olmuşlar. Şərq qadını da bütün dövrlərdə ağlı, dönməzliyi, cəsarəti, mədəniyyəti ilə seçilib, o üzdən qərbli həmcinslərinin marağı və heyranlığı ilə qarşılanıb. Azərbaycan qadını da bu baxımdan istisna deyil.

Ardı 4-cü səh.

## Azərbaycan qadını bu gün layiq olduğu mövqeyə yüksəlmişdir

Azərbaycan dünyagörüşündə qadının yeri çox ucadır. Milli təfəkkürümüz üçün o, ən ali dəyərlərimizin ünvanıdır. Qadın keçmişin həyati əhəmiyyətli adət və ənənələrini nəsillərə ötürür. O, cəmiyyətin bütövlük rəmzi, elin, yurdun, ocağın abadlığı, möhtəşəmliyidir. İnkişafa doğru gedən yollar, atılan müdrik addımlar, qazanılan böyük uğurlar bu nəcib zümrənin fədakarlığı və zəkası sayəsində başa gəlir.



Azad düşüncə, övlad, ailə, Vətən uğrunda fədakarlıq, nikbin ruh, xeyirxah əməllər, ədalətli qərarlar Azərbaycan qadınının tərcümeyi-halını təşkil edir. O, tarixin bütün dövrlərində mənsub olduğu nəslin, ailənin, obanın yükünü daşımaqdan qürur duyur. Əməlləri, davranışları ilə hər zaman bu ucalıqda qərar tutmağa çalışır.

8 Mart tarixinin ilk dəfə dünyanın müxtəlif ölkələrində Beynəlxalq Qadınlar Günü kimi qeyd edilməsindən düz 111 il ötür. Həmin gün 1910-cu ildən bəri hər il dünyanın böyük bir hissəsində qeyd edilərək qadınlara sevgi və hörmətin rəmzinə çevrilir. Bu bayram qadınların hüquq bərabərliyinin təmin olunması, onların ictimai həyatda yaxından iştirakı, məşğulluğu, müxtəlif xidmətlərin zərif cinsin nümayəndələri üçün daha da əlçatanlığı ilə bağlı məsələlərin müzakirəsini də aktuallaşdırır.

Bütün dünyada ilk dəfə qadınların səsvermə hüququnu tanımış ölkə kimi Azərbaycanda qadın fəallığı ilə bağlı məsələlər böyük əhəmiyyət daşıyır. Ulu Öndər Heydər Əliyevin milli inkişaf strategiyasını əzmlə həyata keçirərək ölkəmizi tarixinin ən böyük inkişaf mərhələsinə yetirmiş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəllifi olduğu möhtəşəm tarixdə qadın fəallığı məsələsinin xüsusi yeri var. Ən azı ona görə ki, respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şəxsində Azərbaycan qadını tarixdə layiq olduğu böyük zirvəyə yüksəlmişdir. Bəşəriyyətin inkişafına töhfələr vermək üçün qadınlarımız nə qədər geniş potensiala, bacarığa, ali keyfiyyətlərə malik olduqlarını əməli işləri ilə sübuta yetirmişdilər.

Ardı 5-ci səh.

## Azərbaycan qadınlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-mədəni həyatında səmərəli fəaliyyətlərinə görə, 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar mədəniyyət işçisi"**

Abdullayeva Sahibə Abbas qızı
Firudinbəyova Əfruz Şükür qızı

**"Əməkdar jurnalist"**

Məhərrəmli Zemfira İsmail qızı
Rəsulova Firuzə Həmdəm qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2021-ci il*

## "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi prosesini təkmilləşdirmək məqsədilə **qərara alıram:**

1. "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2021-ci il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan qadınlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Bənənyarlı Səadət İzzət qızı
Cəfərova Novella Cəfər qızı
Qocamanlı Səltənət Məmməd qızı

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Ağayeva Zenfira Hüseyn qızı
Məmmədova Firuzə Nurəddin qızı
Mirzəzadə Rəna Rza qızı

**"Tərəqqi" medalı ilə**

Hüseynova Gülnarə Alxas qızı
Qənbərova Gülbəniz Rəşid qızı
Quliyeva Ülkər Hüseyn qızı
Məmmədova Nəzakət Hüseynağa qızı
Nəsibova Nəcibə Məmməd qızı
Vəliyeva Fəridə Talıb qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2021-ci il*

# Azərbaycan Respublikası İqtisadi Şurasının növbəti iclası keçirilib





Martın 5-də Azərbaycan Respublikası İqtisadi Şurasının növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasın gündəliyində Şuranın iş planına uyğun olaraq 2020-ci ilin yekunları üzrə maliyyə sabitliyi hesabatı, bank sektorunun cari vəziyyəti və digər məsələlər müzakirə olunub.

İqtisadi Şura tərəfindən ölkədə makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması istiqamətində qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Xarici diplomatlar və hərbi attaşelərin Füzuli rayonunun işğaldan azad olunmuş Merdinli kəndinə səfəri təşkil edilib





Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, martın 6-da ölkəmizdəki diplomatik korpusun nümayəndələrinin işğaldan azad olunmuş ərazilərə səfəri təşkil edilib. Səfərin məqsədi Ermənistan silahlı qüvvələrinin qədim yurd yerlərimizdə törətdiyi vəhşiliklər və cinayət əməlləri ilə tanış olmaqdır.

AZƏRTAC xəbər verir ki, diplomatları və hərbi attaşeləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayev və başqaları müşayiət ediblər.

Azərbaycandakı diplomatik korpusun rəhbərləri, hərbi attaşelər və jurnalistlər Ermənistan işğalından azad olunmuş Füzuli rayonunun Merdinli kəndinə gəlib, buradakı məscidin hazırkı vəziyyəti ilə tanış olublar.

Erməni vəhşiliyi barədə məlumat verən Prezidentin köməkçisi Hikmət Hacıyev qeyd edib ki, Merdinli kəndinə səfərin əsas səbəblərindən biri bu kəndin dağıdılması ilə yanaşı, kənddəki tarixi məscidin məhv edilməsini göstərməkdir: "Digər işğal edilmiş ərazilərdə şahid olduğumuz kimi, burada da görürük ki, bu məsciddən də heyvanların, donuzların saxlanması üçün istifadə edilib. İndiyə qədər səfər edilən kəndlərdə yaşayış yerlərində də görmüsünüz, daş-daş üstündə qalmayıb. Bütün bunlar vandalizmin göstəricisidir. Məscidin dağıdılması ilə yanaşı, onun təhqir edilməsi bütün dinlərdə qəbuledilməzdir. Bu, Azərbaycan xalqına, həmçinin müsəlmanların hisslərinə təhqirdir".

Prezidentin köməkçisi əlavə edib ki, digər ərazilər kimi, bu kəndin ərazisi də piyadalar və tank əleyhinə minalarla kütləvi şəkildə çirkləndirilib: "Bu ərazilərin təmizlənməsi üçün ANAMA tərəfindən iş aparılır, lakin 10 noyabr bəyanatından bugünə kimi 50-dən çox azərbaycanlı mülki şəxs və hərbçi bu minaların qurbanı olub".

# Diplomatik korpusun rəhbərləri Qubadlı rayonuna səfər ediblər







Martın 6-da Azərbaycandakı diplomatik korpusun rəhbərləri, hərbi attaşelər və jurnalistlər Ermənistan işğalından azad edilmiş Qubadlı rayonunda olublar. Səfər Prezident İlham Əliyevin tapşırığına əsasən reallaşıb.

Diplomatları və hərbi attaşeləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, ADA Universitetinin rektoru Hafiz Paşayev və digər rəsmi şəxslər müşayiət ediblər.

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Hikmət Hacıyev Qubadlı rayonunun mərkəzində səfər iştirakçılarını erməni vandalizminin acı nəticələri barədə məlumatlandırıb. Qeyd edib ki, rayon işğal dövründə yerləbir edilib, hətta onun mərkəzinin harada yerləşdiyini müəyyən etmək belə çətindir. Yaşayış binaları dağıdılıb, yalnız işğal dövründə hərbi məqsədlər üçün Ermənistan tərəfindən istifadə olunan binalar tikilib.

Hikmət Hacıyev vurğulayıb ki, Qubadlının və Zəngilanın işğalı çox çətin şəraitdə baş verib. Cəbrayıl və Füzuli işğal olunduğu üçün bu rayonlarda yaşayan insanların rayonu tərk etməsi çətin idi, onlar mühasirəyə alınmışdılar. Belə bir şəraitdə mülki əhalinin çox hissəsi Araz çayı üzərində İranın yaratdığı humanitar dəhliz vasitəsilə çıxmaq məcburiyyətində qaldılar. Onların bir çoxu da Araz çayında həyatlarını itirdilər. Bu da Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı işğal prosesi çərçivəsində törətdiyi qırğın siyasətinin tərkib hissəsi idi. Ekspertlər Qubadlıda olub və burada törədilən dağıntıları qiymətləndiriblər.

Qubadlıda çoxsaylı dini-mədəni abidələrin olduğunu deyən Hikmət Hacıyev diqqətə çatdırıb ki, bu abidələrin hamısı dağıdılıb. "Mən Cəbrayılda dağıdılan qəbiristanlıqlar barədə də danışmaq istərdim. Evlərin, qəbiristanlıqların məqsədli şəkildə dağıdıldığının şahidiyik, - deyə o əlavə edib.

Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov 1993-cü ildə Xarici İşlər Nazirliyinin əməkdaşı olaraq Qubadlıya son səfəri barədə danışıb. Bildirib ki, əhalinin əksəriyyəti həmin dövrdə rayonu tərk etmək istəmirdi. Rayon coğrafi baxımdan çox strateji yerdə yerləşir. Qubadlı 1988-ci ildə Ermənistandan qovulan azərbaycanlıları qəbul edən ilk rayonlardan biri idi. Əhali rayonu müdafiə edirdi, lakin həm Qarabağdan, həm də Ermənistan ərazisində yerləşən Qafan şəhərindən davamlı artilleriya atəşinə məruz qalan qubadlılılar həyatlarını xilas etmək üçün öz evlərini tərk etməyə məcbur oldular.

O deyib ki, Qubadlının əhalisi təxminən 29 min nəfər idi, lakin keçən illər ərzində rayonun əhalisinin sayı artaraq 40 mini keçib.

# Diplomatik korpus nümayəndələri Füzuli Beynəlxalq Hava Limanının tikintisinin gedişi ilə tanış olublar

Diplomatik korpus nümayəndələri Füzuliyə səfər çərçivəsində Füzuli Beynəlxalq Hava Limanının tikintisinin gedişi ilə tanış olublar.

AZƏRTAC-ın məlumatına görə, diplomatlara Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yenicə əsası qoyulmuş hava limanında görüləcək işlər barədə məlumat verilib. Bildirilib ki, tikinti işlərinə Azərbaycanın xarici tərəfdaşları da fəal surətdə cəlb olunub.







# Xarici diplomatlar və hərbi attaşelər Laçında "Güləbird" Su Elektrik Stansiyası ilə tanış olublar







Martın 6-da Azərbaycandakı diplomatik korpusun rəhbərləri, hərbi attaşelər və jurnalistlər Laçın rayonuna səfər ediblər. Səfər Prezident İlham Əliyevin tapşırığına əsasən həyata keçirilib.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində diplomatik korpusun rəhbərləri, hərbi attaşelər və jurnalistlər erməni vandallarının qədim yurd yerlərimizdə törətdiyi vəhşiliklər və cinayət izləri ilə tanış olublar.

Diplomatları və hərbi attaşeləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, ADA Universitetinin rektoru Hafiz Paşayev və digər rəsmi şəxslər müşayiət ediblər.

Səfər iştirakçıları Laçında "Azərenerji" ASC-nin "Güləbird" Su Elektrik Stansiyası ilə tanış olublar.

"Azərenerji" ASC-nin vitse-prezidenti Ziyəddin Quliyev işğaldan azad edilən ərazilərin mövcud və perspektiv elektrik təchizatı barədə ətraflı məlumat verib.

Qeyd olunub ki, Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə "Güləbird" Su Elektrik Stansiyası bu il fevralın 15-də Prezident İlham Əliyevin iştirakı ilə işə salınıb. Erməni qəsbkarları işğal dövründə xislətlərinə uyğun olaraq digər yerlərdəki kimi, bu stansiyanı da darmadağın etmişdilər. Dövlət başçısının tapşırığı ilə qısa müddət ərzində istismara verilən bu stansiya işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yaradılması və nəzərdə tutulan digər işlərin həyata keçirilməsi baxımından böyük önəm daşıyır.

"Güləbird" Su Elektrik Stansiyasının istifadəyə verilməsi tarixi və əlamətdar hadisədir. Bu, işğaldan azad olunan rayonlarda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihəsidir. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

# Yeni Azərbaycan Partiyası yeni siyasi nümunə ortaya qoydu

*Əvvəli 1-ci səh.*

## YAP islahatlara öz töhfəsini verir

YAP-ın VI qurultayı 3 il əvvəl, 2018-ci il fevralın 8-də keçirilib. Qurultay həmin il aprelin 11-də keçirilən prezident seçkilərinə Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevin namizədliyini irəli sürmüşdü. Ötən 3 ildə Azərbaycanın siyasi-ictimai, sosial həyatında çox ciddi dəyişikliklər baş verib. Hələ 2018-ci ilin aprel seçkilərindəki qələbədən sonra Prezident İlham Əliyev bildirmişdi ki, əldə edilmiş nailiyyətlərlə kifayətlənməməli və gələcəyə baxmalıyıq. Milli Məclisdə keçirilən andiçmə mərasimində İlham Əliyev Azərbaycanın daha da qüdrətli ölkəyə çevriləcəyini, siyasi-iqtisadi islahatların dərinləşdiriləcəyini bildirmişdi.

Cəmiyyət həyatının istənilən sahəsində inkişafın, fəaliyyət dinamizminin və ahəngdarlığın təmin edilməsi yeni yanaşmaların tətbiqini, daha dəqiq ifadə etsək, zamanın nəbzini tutan islahatların həyata keçirilməsini tələb edir. Respublikamızın nail olduğu yüksəliş nümunələri də islahatların labüdlüyünün və uğurlu nəticəsinin ən gözəl nümunələridir. Siyasi, sosial-iqtisadi, mədəni-humanitar nailiyyətlərimizin hər biri məhz ardıcıl və sistemli islahatların nəticəsində mümkün olub.

Son illərdə həyata keçirilən islahatlar idarəetmədə keyfiyyətin və səmərəliliyin daha da artırılmasına, vətəndaş məmnuniyyətinin yüksəldilməsinə xidmət etdi. Bu baxımdan yeni islahatlar dövlət hakimiyyəti idarəetməsini, məhkəmə-hüquq sistemini cəmiyyətdə formalaşan yeni çağırışlara və ölkədə baş verən pozitiv dəyişikliklərə uyğunlaşdırdı, ictimai həyatın bütün sferalarında vətəndaşların məmnunluq səviyyəsinin artırılmasında mühüm əhəmiyyət kəsb etdi. O cümlədən sosial islahatlar Prezident İlham Əliyevin öz vətəndaşına olan diqqət və qayğısının təzahürü idi.

Prezident İlham Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyası bu islahatların həyata keçirilməsinə öz töhfəsini verir. Məhz YAP-ı təmsil edən deputatların təşəbbüsü ilə Milli Məclisin buraxılması və yeni parlament seçkilərinin təyin edilməsi üçün Prezidentə müraciətin qəbul edilməsi partiyanın islahatlara verdiyi dəstəyin və töhfənin növbəti nümunəsi idi.

## VII qurultay partiya fəaliyyətini yeni mərhələyə yüksəldir

YAP-ın VII qurultayı cəmiyyətimizdəki yeniliklər və pozitiv dəyişikliklər fonunda keçirildi. Bu qurultaya qədərki dövrün ən böyük hadisəsi isə təbii ki, torpaqlarımızın işğaldan azad olunması idi. Təsadüfi deyil ki, Prezident, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev VII qurultayda giriş nitqinə də məhz Vətən müharibəsində qazanılan Qələbə barədə fikir bildirməklə başladı: *"Partiyamızın VI qurultayından üç il ötür. Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir".*

Son prezident seçkilərindən sonra İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələr yerinə yetirilir, islahatlar uğurla davam edir, Azərbaycan ardıcıl və sistemli şəkildə qarşıya qoyulan bütün hədəflərə inamla çatır. Cənab İlham Əliyevin də qeyd etdiyi kimi, YAP-ın VII qurultayının keçirilməsinin zərurəti məhz bu səbəblərdən doğur.

YAP-ın VII qurultayında vacib qərarlar qəbul edildi. Partiyanın yeni Nizamnaməsinin qəbul olunması, İdarə Heyətinin 40 nəfərdən ibarət tərkibdə seçilməsi partiyanın idarə olunmasının və partiyada fəaliyyətin tənzimlənməsinin yeni, çevik mexanizminin yaradılması baxımından aktuallıq kəsb edir.

Bütövlükdə, YAP-ın VII qurultayı və qəbul olunan qərarlar partiyanın fəaliyyətini yeni mərhələyə yüksəldir. Ən əsası, qəbul olunan qərarlarla YAP həm də yeni siyasi nümunə ortaya qoydu. Ən əsası, VII qurultay göstərdi ki, ölkənin aparıcı siyasi qüvvəsi kimi YAP bundan sonra da qarşısında dayanan vəzifələri layiqincə yerinə yetirəcək.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Erməni vandalları Azərbaycanın təbiətinə ciddi ziyan vurub, ekoloji terror törədiblər

İşğaldan azad olunmuş Qubadlı rayonuna səfər edən Azərbaycandakı diplomatik korpusun rəhbərləri, hərbi attaşelər və jurnalistlər burada erməni vandallarının törətdiyi ekoloji terrorun izləri ilə tanış olublar.



Diplomatları və hərbi attaşeləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, ADA Universitetinin rektoru Hafiz Paşayev və digər rəsmi şəxslər müşayiət ediblər.

AZƏRTAC-ın verdiyi məlumata görə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi Möhübbət Qurbanov erməni vandallarının Qubadlıda törətdikləri vəhşiliklər barədə məlumat verib. Bildirib ki, Həkəri çayı boyunca böyük tut bağları ekoloji terrora məruz qalıb. Bütün ağaclar kəsilib, yandırılıb. Şərq çinarı, yunan qozu kimi nadir ağac növləri məhv edilib. 107 hektar ərazini əhatə edən Bəsitçay dövlət qoruğu ekoloji terrora məruz qalıb. Burada dəfələrlə yanğınlar törədilib. Kəndlərimiz dağıdılıb, yaşıllıqlarımız məhv edilib.

Qeyd edək ki, Azərbaycandakı diplomatik korpusun rəhbərləri, hərbi attaşelər və jurnalistlərin işğaldan azad olunmuş rayonlara səfəri Prezident İlham Əliyevin tapşırığına əsasən reallaşıb.

# “Siyasi dialoqda qadınların rolu” mövzusunda görüş keçirilib

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə martın 6-da “Siyasi dialoqda qadınların rolu” mövzusunda videokonfrans formatında tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə 31 siyasi partiyanı (Yeni Azərbaycan Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Demokratik İslahatlar Partiyası, Ana Vətən Partiyası, Milli Cəbhə Partiyası, Azərbaycan Ümid Partiyası, Klassik Xalq Cəbhəsi Partiyası, AĞ Partiyası, Azərbaycan Naminə Alyans Partiyası, Vətəndaş və İnkişaf Partiyası, Vəhdət Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası, Azərbaycan Sosial Rifah Partiyası, Gələcək Azərbaycan Partiyası, Azərbaycan Demokrat Partiyası, Azərbaycan Liberal Demokrat Partiyası, Müasir Müsavat Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Azərbaycan Kommunist Partiyası, Aydınlar Partiyası, Müstəqil Xalq Partiyası, Milli Həmrəylik Partiyası, Yeni Zaman Partiyası, Ədalət Partiyası, Birlik Partiyası, Azərbaycan Təkamül Partiyası, Azərbaycan Respublikaçılar Partiyası, Cümhuriyyət Xalq Partiyası, Müsavat Partiyası, Azərbaycan Xalq Partiyası) təmsil edən 50-dən çox qadın iştirak edib.

Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev görüşdə iştirak edən qadınları Prezident İlham Əliyevin adından 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib və ölkə rəhbərliyinin siyasi dialoqun təşviqində qadınların daha fəal roluna ümid bəslədiyini bildirib.

Dövlətin, həmçinin ictimai təfəkkürün inkişafında qadınların rolu kontekstində tarixə ekskurs edən şöbə müdiri tarixi ənənələrin parlaq davamçısı olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dünya siyasi arenasında öz sözünü deyən müasir dünyamızın ən nüfuzlu qadınları sırasında öncül yer tutduğunu vurğulayıb, onun müstəqil Azərbaycanın aparıcı qadın qüvvəsinin siması olmaqla, qadın hərəkatını canlandırdığını, bu istiqamətdə məzmun etibarilə yeni, müasir mərhələ açdığını qeyd edib. Azərbaycanın beynəlxalq təşəbbüsləri və uğurları kontekstində Mehriban xanım Əliyevanın rəhbərliyi və bilavasitə iştirakı ilə həyata keçirilən humanitar xarakterli, habelə multikulturalizm, mədəniyyətlərarası dialoq, tolerantlıq və bu kimi digər inteqrativ məzmunlu qlobal layihələrin dünya ictimaiyyəti tərəfindən rəğbətlə qarşılandığı diqqətə çatdırılıb.

Sonra administrasiya rəsmisi Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə reallaşdırılan sistemli islahatlar, həmçinin siyasi dialoq mühitinin təşviqi istiqamətində görülmüş işlər haqqında məlumat verib. Siyasi proseslərdə iştirak edən tərəflər arasında sağlam və etibarlı münasibətlərin qorunmasında qadınların əvəzolunmaz rolunun, vətəndaş cəmiyyəti institutlarının daha fəal mövqe tutmalarının vacibliyini qeyd edib.

Görüşdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova “Qadınlar siyasi həmrəylik uğrunda”, Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının üzvü Fatma Yıldırım “Qadınların demokratik parlament ənənələrinin inkişafında rolu və siyasi dialoqa töhfələri”, Dilarə Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi Cəmiyyətinin sədri (Müsavat Partiyasının üzvü) Novella Cəfərova “Vətən müharibəsi və insan hüquqları”, Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova “Siyasi proseslərdə qadınların iştirakı”, Hüquq müdafiəçisi İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi İctimai Birliyinin rəhbəri (Müsavat Partiyasının üzvü) Səidə Qocamanlı “Qadınların qərar qəbuletmədə rolu”, Vətəndaş Həmrəyliyi Partiyasının üzvü (Azəri-Türk Qadınlar Birliyinin sədri) Tənzilə Rüstəmxanlı “Vətən müharibəsində qəhrəman qadınlar”, Azərbaycan Ümid Partiyası sədrinin müavini Tamilla Qulami “Qadınlar barış və dialoq təbliğatçılarıdırlar”, Azərbaycan Milli İstiqlal Partiyasının fəalı Ceyran Ənsər “Siyasi dialoq mədəniyyətinin inkişafı”, Ana Vətən Partiyası sədrinin müavini Günay Ağamalı “Siyasi dialoqun zərurəti: mövcud vəziyyət və perspektivlər”, Milli Cəbhə Partiyasının fəalı Almaz Məmmədova “Təhsildən kənar qalan qadınlar: mövcud problemlər, çıxış yolları və iştirakı” və Gələcək Azərbaycan Partiyası Qadınlarla iş üzrə sədrinin müavini Tovuz Soltanova “İctimai sektorda qadınların fəaliyyəti və inkişaf yolu” mövzuları üzrə məruzələrlə çıxış ediblər.

Sonda administrasiya rəsmisi ölkənin ictimai-siyasi həyatında fəal mövqe tutmuş qadınların bundan sonra da dövlətin inkişafında və cəmiyyətdə yaşanan həmrəylik mühitinin qorunmasında öz bilik və bacarıqlarını əsirgəməyəcəklərində əminliyini bildirib.

# Vətən müharibəsində Qələbə Azərbaycan qadınının gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etdiyini təsdiqlədi

## Azərbaycan Ordusunun xanım əməkdaşları Vətən müharibəsində həm ön, həm də arxa cəbhədə xüsusi fədakarlıq nümunələri göstərərək Qələbənin qazanılmasına öz töhfələrini veriblər

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunda xidmət edən qadınları 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, təbrik məktubunda Azərbaycan qadınının tarixboyu müqəddəs ana şərəfini uca tutaraq mübarizliyi ilə tanındığı vurğulanıb. Bildirilib ki, qadınlar ölkəmizin ictimai-siyasi, mədəni həyatında fəal iştirak etməklə Vətənin müdafiəsində və dövlətin idarə olunmasında daim əzmlə çalışırlar.

Xüsusi vurğulanıb ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ötən ilin sentyabrın 27-dən başlayaraq 44 gün müddətində davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu işğal altındakı tarixi torpaqlarımızı azad edərək Zəfər qazandı. Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Bu Zəfərin əldə olunmasında göstərilən qəhrəmanlıq, qorxmazlıq Azərbaycan qadınının gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etdiyinin, onları xalqa, cəmiyyətə layiqli övlad kimi formalaşdırmasının başlıca göstəricisi kimi təsdiqləndi.

Qadınlarımızın həyatın bütün sahələrində aktiv fəaliyyəti olduğu kimi, ordu quruculuğundakı xidmətləri də şərəf və qürur mənbəyidir. Azərbaycan Ordusunun xanım əməkdaşları Vətən müharibəsində həm ön, həm də arxa cəbhədə xüsusi fədakarlıq nümunələri göstərərək Qələbənin qazanılmasına öz töhfələrini veriblər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizin milli maraqlarına xidmət edən və tarixi ənənələrimizi yaşadan çoxlu sayda böyük layihələrin uğurla icra olunması Azərbaycan qadınının mərhəmət və xeyirxahlığının, yüksək əxlaqi dəyərlərə, zəngin mənəvi-intellektual səviyyəyə malik olduğunun bariz nümunəsidir.

“Bu gün Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə xidmət edən, mülki işlərdə çalışan qadınlar Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirir.

Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan qadınlarımızın əziz xatirəsini ehtiramla yad edir, bütün şəhid analarına və xanımlarına, döyüşlərdə sağlamlığını itirən hərbi qulluqçuların ömür-gün yoldaşlarına, Vətənimiz üçün layiqli övladlar böyüdən əsgər analarına bayram təbriklərimi çatdırır, yüksək hörmət və ehtiramımı ifadə edirəm.

İnanıram ki, bütün qadınlar kimi, ordu quruculuğunda xidmət edən və çalışan ana və bacılarımız bundan sonra da ölkə rəhbərliyinin etimadını doğruldacaq, göstərilən diqqət və qayğıya cavab olaraq Vətənə, xalqa, dövlətə sədaqət nümayiş etdirəcəklər.

Əziz xanımlar!

8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə bir daha təbrik edir, Sizlərə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, ölkəmizin tərəqqisi və xalqımızın firavan gələcəyi naminə gördüyünüz işlərdə uğurlar arzulayıram”, - deyə müdafiə naziri Zakir Həsənovun təbrik məktubunda bildirilib.

# ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!



## Qəbələdə Vətən müharibəsi şəhidlərinin xatirəsi anılıb

Torpaqlarımızın erməni işğalından azad edilməsi naminə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi xalqımız tərəfindən daim uca tutulur, ehtiramla anılır.

AZƏRTAC xəbər verir ki, şanlı zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Qəbələ rayonunun igid oğullarının - Bunud kənd sakini mayor İsmayılov Natiq Əjdər oğlunun və Böyük Pirəli kəndindən olan şəhid Qurbanov İsmayıl Yaşar oğlunun doğum günü ilə əlaqədar anım tədbirləri keçirilib.

Rayon icra hakimiyyətinin, təhsil şöbəsinin, Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin əməkdaşları, həmçinin hər iki şəhidin təhsil aldıqları kənd məktəblərinin kollektivləri doğum günü ilə əlaqədar şəhidlərin məzarlarını ziyarət edərək üzərinə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad edib, ruhlarına dualar oxuyublar.

Şəhidlərin valideynləri və ailə üzvləri övladlarının qəhrəmanlığı ilə fəxr etdiklərini bildirib, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

## Şəhidin ad günü məzarı yanında qeyd olunub

Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan Göyçay rayonunun Şıxbəy kəndindən olan Qismət Yolçu oğlu Qasımovun ad günü uyuduğu qəbiristanlıqda məzarı yanında qeyd olunub.




AZƏRTAC xəbər verir ki, mərasimdə rayon icra hakimiyyətinin məsul işçiləri, şəhidin yaxınları, kənd sakinləri iştirak ediblər. İştirakçılar Qismət Qasımovun məzarı üzərinə gül-çiçək dəstələri düzüblər.

Qismət Qasımov yaşasaydı 28 yaşını qeyd edəcəkdi.

Anım mərasimində Qismət Qasımovun həyat yolundan danışılıb, 2020-ci il oktyabrın 25-də Ağdərə-Suqovuşan istiqamətində gedən döyüşlərdə düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olduğu vurğulanıb. Şəhid atası Yolçu Qasımov şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razılığını ifadə edib və buna görə Prezident, Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını bildirib.






## Qubadlı rayonu ərazisində DSX-nin Hərbi Xəstəxanası və Mühəndis-İstehkam Mərkəzi fəaliyyətə başlayıb

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbə sayəsində dövlətimizin ərazi bütövlüyü təmin edildikdən, o cümlədən ölkəmizin Ermənistan Respublikası ilə dövlət sərhədi işğaldan azad edildikdən sonra bu ərazilərdə dövlət başçısının tapşırığına əsasən zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması, hərbi qulluqçuların xidmət, sosial-məişət şəraitinin, o cümlədən tibbi təminatının yaxşılaşdırılması üzrə ardıcıl və kompleks tədbirlər davam etdirilir.





Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, martın 5-də Qubadlı rayonu ərazisində DSX-nin Hərbi Xəstəxanası və Mühəndis-İstehkam Mərkəzi fəaliyyətə başlayıb.

İşğaldan azad edilmiş ərazilərdə bu tədbirlər çərçivəsində ilk dəfə olaraq Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının vaksinasiyasına start verilib, birinci gündə 100 sərhədçi COVID-19 xəstəliyi əleyhinə peyvənd olunub. COVID-19 infeksiyası əleyhinə Vaksinasiya Strategiyasına əsasən, bugünədək DSX-nin 2 mindən artıq hərbi qulluqçusunun vaksinasiya edildiyi vurğulanıb, Azərbaycan sərhədçisinə göstərilən bu yüksək dövlət qayğısına görə minnətdarlıq ifadə olunub.

Dövlət Sərhəd Xidməti rəisinin birinci müavini - Baş Qərargah rəisi general-leytenant Rəşad Sadiqov açılış mərasimində çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etməyin hər bir Azərbaycan sərhədçisi üçün böyük şərəf və qürur mənbəyi olduğunu xüsusi qeyd edib, hazırda Azərbaycan-Ermənistan dövlət sərhədində üçrəngli dövlət bayrağımız altında Azərbaycanın dövləti maraqlarının ən yüksək səviyyədə qorunmasını vurğulayıb.

Azərbaycan sərhədçilərinin həyat və sağlamlıqlarını qorumaq, şəxsi heyətin xidməti ərazidə təhlükəsiz hərəkətlərinə şərait yaratmaq üçün təyinatlı olan yeni sərhəd mühafizə orqanlarının fəaliyyətə başlaması münasibətilə DSX-nin rəisi general-polkovnik Elçin Quliyevin təbriki şəxsi heyətə çatdırılıb.

Tədbir çərçivəsində Mühəndis-İstehkam Mərkəzinin inzibati binası və təchizat anbarı, mina və partlamamış hərbi sursatların aşkarlanması üzrə mövcud texniki vasitələr, xüsusi geyimlər tədbir iştirakçılarına nümayiş etdirilib. Ermənistan silahlı qüvvələrinin dövlət sərhəd xətti boyu minalandığı ərazilərdən sərhədçi-istehkamçıların indiyədək tank əleyhinə 340 və piyada əleyhinə 825 mina, çoxsaylı partlamamış sursatlar aşkarlayaraq zərərsizləşdirmələri, xidməti ərazidə bu fəaliyyətin gündəlik olaraq davam etdirilməsi qeyd olunub. Bu mərkəzin hərbi qulluqçuları tərəfindən sərhədboyu ərazilərdə şəxsi heyətin və hərbi nəqliyyat vasitələrinin hərəkəti üçün yolların salınması istiqamətində görülən işlər xüsusi vurğulanıb.

Yeni istifadəyə verilmiş dördmərtəbəli, 70 çarpayı fonduna malik hərbi xəstəxanada hərbi qulluqçulara yüksəkixtisaslı tibbi yardımın göstərilməsi üçün yaradılmış şəraitə baxış keçirilib. Hərbi xəstəxanada əməliyyat, ultrasəs müayinəsi və exokardioqrafiya, stomatoloji, manipulyasiya otaqları, somatik və infeksion palataları var. Bununla yanaşı, inzibati otaqlar, əczaxana, depo, yeməkxana, mətbəx, ərzaq və əşya anbarları mövcuddur. Bölmələr tibb heyəti ilə tam komplektləşdirilib, zəruri avadanlıq və cihazlarla təchiz olunub. Hərbi tibb müəssisəsi mərkəzi istilik sistemi ilə təmin edilib.

Hərbi xəstəxananın tibbi ambulans avtomobillərinə baxış keçirilib, səhra şəraitində yaralılara ilkin tibbi yardım göstərilməsi və onların təxliyəsi üçün yaradılmış imkanlar nəzərdən keçirilib.

## Orxan hər kəsin yaddaşında yaxşı xatirələrlə qalıb

Bu gün dövlətimiz şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına diqqət və qayğısını əsirgəmir. Qarşıya çıxan bütün məsələlər dərhal həll edilir, onların vətənpərvərliyi gənc nəslə nümunə göstərilir.





“Naxçıvan” Universitetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu fikirlər şəhid Orxan Paşazadənin xatirəsinə həsr olunmuş tədbirdə vurğulanıb.

Tədbiridə çıxış edən universitetin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsində təhsil aldığı müəssisələrin böyük rolu var. Uşaq yaşlarında orta məktəblərdə, gənclik illərində isə ali təhsil ocaqlarında onlara Vətən sevgisi aşılanır. Biz fəxr edirik ki, təhsil verdiyimiz gənclər öz vətənpərvərliyi ilə fərqlənirlər. Universitetin ilk şəhid məzunu olan Orxan da öz vətənpərvərliyi, nizam-intizamı ilə həmişə fərqlənib. Tələbə yoldaşlarının, müəllimlərinin və universitet rəhbərliyinin rəğbətini qazanıb. Hər kəsin yaddaşında yaxşı xatirələrlə qalıb.

Orxan Paşazadənin Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejiminin pozulması nəticəsində Qazax rayonun Quşçu Ayrım kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsində şəhadət zirvəsinə ucaldığını qeyd edən rektor bu gün onun əbədiyyətə qovuşmasından bir il ötdüyünü diqqətə çatdırıb. Sonra universitetin prorektoru, muxtar respublikanın Ali Məclisinin deputatı Hüseyn Bağırsoylu və fakültə dekanı Yasin Babazadə çıxış ediblər.

Tədbirdə şəhidin atası Nazim Paşazadə ilə telefon bağlantısı yaradılıb. Nazim Paşazadə universitet rəhbərliyinə minnətdarlıq edib, şəhidlərin yad edilməsinin onların ailə üzvləri üçün təsəlli olduğunu vurğulayıb. Şəhidin qrup yoldaşı Siyasət Hüseynova çıxışında Orxanla bağlı xatirələrindən danışıb, şəhidin nizam-intizamı ilə digərlərindən fərqləndiyini deyib. Sonra tələbələr çıxış ediblər.

## Britaniyanın “The Telegraph” saytı: “Azərbaycanlılar Qarabağa qayıtmağı səbirsizliklə gözləyirlər”

Böyük Britaniyanın “The Telegraph” xəbər saytında azərbaycanlı köçkünlərin Qarabağa qayıtmaq arzularından bəhs edən məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etmiş jurnalist Kampbel Makdiarmid Dağlıq Qarabağ bölgəsində və ətraf 7 rayonda yaşamış yüz minlərlə azərbaycanlının öz ata yurdlarından didərgin salındıqlarını, lakin onların heç vaxt bu vəziyyətlə barışmadıqlarını qeyd edir.

Məqalədə Birinci Qarabağ müharibəsi zamanı Dağlıq Qarabağın və ətraf yeddi rayonun ermənilərin nəzarəti altına keçdiyi, Azərbaycanın isə bu nəticəni heç vaxt qəbul etmədiyi vurğulanır. Ötən ilin sentyabrında Prezident İlham Əliyevin əmri ilə həmin ərazilərin geri qaytarılması üçün əks-hücum əməliyyatının başlandığı, noyabr ayında isə Rusiyanın vasitəçiliyi ilə atəşkəs əldə edildiyi bildirilir. Qeyd edilir ki, nəticədə erməni qüvvələri Qarabağı əhatə edən ərazinin böyük hissələrini geri qaytarmaq məcburiyyətində qaldı. İndi məcburi köçkünlər həmin ərazilərdə işlərin bitməsini və sonra geri qayıtmalarını səbirsizliklə gözləyirlər.

Məqalədə 14 yaşında Qarabağdan çıxmağa məcbur qalan Həbib Məmmədov adlı şəxsin doğulduğu və böyüdüyü torpaqlara 27 ildən sonra qayıtmaq üçün səbirsizləndiyi də diqqətə çatdırılır.

Bildirilir ki, 1994-cü ildə atəşkəs razılaşması imzalansa da, tam sabitlik olmayıb. İşğal edilən torpaqlarda pambıq tarlaları, üzüm bağları məhv edilib, bir zamanlar yaşayış yerləri olan ərazilər yerləyeksan edilib. Vaxtilə 30 min nəfərin yaşadığı Ağdam şəhəri o qədər ziyan görüb ki, onu “Qafqazın Xirosiması” adlandırırlar.

Müəllif Prezident İlham Əliyevin fevralın 26-da keçirdiyi mətbuat konfransından da söhbət açır. O, dövlət başçısının sentyabr ayında başlanan müharibənin son çarə olması, danışıqların nəticə verməməsi ilə bağlı fikirlərini diqqətə çatdırır.

Məqalədə həmçinin azad edilmiş ərazilərdə görülən işlər barədə məlumat verilir. Bildirilir ki, Prezident İlham Əliyev geri alınmış ərazilərdə yenidənqurma işləri üçün təxminən 1,4 milyard funt sterlinq vəsait ayırıb. Füzulidə beynəlxalq hava limanı sürətlə tikilir. Azərbaycan qüvvələri tərəfindən geri alınmış Şuşa şəhərinə çoxzolaqlı avtomobil yolu çəkilir. Yeni elektrik dirəkləri artıq Zəfər Yolu adlandırılan marşrut xəttindədir.

Həmçinin müəllif Qarabağda yaşayan ermənilərin aqibəti haqqında da məlumat verərək bildirir ki, Azərbaycan vətəndaşlığını qəbul etmək istəyən erməniləri tam hüquqlar gözləyir. Azərbaycan çoxmillətli ölkədir, onsuz da bu ölkədə 30 min erməni yaşayır. Ancaq bu hüquqlara erməni dilinin rəsmi dil kimi tanınması aid deyil. Prezident İlham Əliyev də mətbuat konfransında bu məsələyə toxunaraq dedi ki, Azərbaycanda rəsmi dil Azərbaycan dilidir və başqa heç bir dil bu statusa sahib deyil.

Məqalədə ermənilərin işğal olunmuş ərazilərdə törətdikləri dağıntıları əks etdirən fotolar da yer alıb.

8 Mart Beynəlxalq Qadınlar Günüdür

# Vətənin şərəfini ucaldan xanım

Qadınlar ölkəmizdə ali təhsil ocaqlarında magistrlərin 54 faizini, fəlsəfə doktorlarının 51 faizini, elmlər doktoru dərəcəsinə malik olanların 46 faizini, tədqiqatçıların 56 faizini təşkil edir

*Əvvəli 1-ci səh.*



Qadınlarımız tarixən çətin, dolanbac inkişaf yolu keçmişlər. Tarixi palitra görün nə qədər zəngindir! Qalın cildlərə sığmayan ulu tariximizi vərəqləsək görərik ki, cəmiyyətin bütün mərhələlərində qadınlarımız kişilərlə bərabər həm dövlət quruculuğunda, həm də idarəetmədə fəallıq göstərmişlər. Hələ 1901-ci ildə bütün müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəb məhz Bakıda yaradılıb. Böyük mesenat, xeyriyyəçilik əməlləri ilə xalqının həyatında silinməz izlər qoyan Hacı Zeynalabdin Tağıyev yaxşı bilirdi ki, millətinin tərəqqisi, düşdüyü zülmət və zillətdən nicat tapması üçün, ilk növbədə, mədəniyyət, mətbuat və maarif ziyası lazımdır. Beləliklə, həmin işıq bu azman xeyriyyəçinin Bakıda min bir əzabəziyyətlə açdırdığı, müsəlman Şərqində ilk dünyəvi Qızlar məktəbindən şəfəq saçıb.

ISESCO-nun "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü münasibətilə keçirdiyi konfransda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva videoformatda çıxış edərkən bu dünyəvi Qızlar məktəbini yaradan yurdun təmsilçisi olduğunu diqqətə çatdırmış, həmin təhsil ocağının o dövrdə Azərbaycan qadınının, gənc qızların savadlanmasında, təlim-tərbiyəsində mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışdır. Mehriban xanım bir əsr öncə dünyada ilk dəfə sənaye üsulu ilə neft quyusunun qazıldığı, Şərqdə ilk operanın açıldığı və müsəlman dünyasında ilk demokratik respublikanı yaratmaqla tanınan ölkədən olduğunu, Azərbaycanın hələ 1918-ci ildə qadınlara seçmək və seçilmək hüququnu verən ilk ölkələrdən biri kimi tarixə düşdüyünü fəxarətlə dilə gətirmişdir.

Ölkəmizdə qadın siyasətinin formalaşdırılması zəngin tariximizin ən yaddaqalan səhifələrindəndir. Müsəlman Şərqində qadına seçmək və seçilmək hüququnun verilməsi doğrudan da, mühüm nailiyyət kimi qiymətləndirilməlidir. Bununla da nəinki Şərqdə, hətta bir sıra Avropa ölkələrindən və demokratiyanın beşiyi sayılan ABŞ-dan illər öncə, ölkəmizin qadınlarına cəmiyyətdə gedən siyasi proseslərə qoşulmaq hüququ verilmişdir.

Azərbaycanda qadın siyasətinin dövlət səviyyəsinə qaldırılması Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətidir. Ümummilli Lider qurduğu və daim irəli apardığı dövlət siyasətində qadın hüquqlarının müdafiəsinə, milli qadın hərəkatının formalaşmasına önəm verirdi. Qadın hərəkatının institutlaşdırılması da Heydər Əliyevin ölkəmizə əvəzsiz töhfələrindəndir.

Çağdaş günümüzdə Azərbaycan qadınının nəcabətini, gözəlliyini, zəkasını ölkəmizin birinci xanımı Mehriban Əliyevanın simasında görür və dəyərləndirirlər. Yüksək dünyagörüşünə, intellektual və mədəni səviyyəsinə, daxili dünyasının zənginliyinə görə fərqlənən Mehriban xanımı məhz siyasi çevikliyi, qarşıdakı hədəfləri həyata keçirmək məharəti, praqmatikliyi qadınlarımızın nüfuzlu lideri kimi həyatın önünə çıxarıb. Mehriban Əliyeva şəxsiyyətindən söz açanda, ilk növbədə, onun doğma xalqına, Vətəninə dərin sevgisi və ehtiramı göz önünə gəlir. Azərbaycanın ictimai-siyasi həyatında önəmli yer tutan, vətənimizin beynəlxalq arenada nüfuzunun artmasında böyük səylər göstərən Mehriban xanım Əliyeva UNESCO və ISESCO-nun xoşməramlı səfiridir.

Mehriban xanım Əliyeva çoxşaxəli fəaliyyətində Azərbaycan qadın hərəkatının öncülü kimi, ölkəmizin iqtisadi və siyasi inkişafı naminə qadınlarımızın özünü təsdiq etməsi və cəmiyyətin bütün sahələrində fəal iştirakına imkanlar yaradılması üçün böyük səylər göstərir. Humanizm və xeyirxahlıq simvolu olan Mehriban Əliyeva adıçəkilən çıxışında bu mühüm videotoplantıya dəvətinin Azərbaycan qadınlarının təhsil və elmdə iştirakının səviyyəsi ilə bağlı siyasətin yüksək qiymətləndirilməsinin təzahürü hesab etdiyini, ISESCO tərəfindən 2021-ci ilin "Qadınlar ili" elan edilməsi çərçivəsində dünyanın müxtəlif yerlərində zərif cinsin nümayəndələrinin elmdə iştirakına dair silsilə tədbirlərin keçirilməsinin rəğbətlə qarşılandığını vurğulamışdır.

Elm və təhsilin, bəşəriyyətin, ümumən gənc nəslin sosial-mədəni inkişafındakı yeri və əhəmiyyəti bütün dünyaya bəllidir. Gələcək perspektivlər və inkişaf planlarını qabaqcadan verməklə elm cəmiyyətin həyatında son dərəcə mühüm rol oynayır. Məlumdur ki, dünyada uzun əsrlər boyu elm və təhsili kişilər təmsil edib və qadınların bu sahələrdə təmsilçiliyi cüzi olub. Sovet dövrünə qədər ölkəmizdə də belə olmuşdur. Sonrakı illərdə elm və təhsildə gender disbalansının aradan qaldırılması yönündə böyük irəliləyiş əldə edilmiş, təhsil prosesində hər iki cinsin mütləq iştirakı üçün imkanlar yaradılmışdır. Təhsilin inkişafı elmin inkişafı ilə sıx əlaqəlidir və təbii ki, elmin yüksək səviyyəsini təmin edir. Fərdin mükəmməl təhsil alması onun gələcək elmi fəaliyyətini şərtləndirir. Qlobal çağırışlara cavab vermək üçün elm, texnologiya və innovasiya zərurətə çevrilmişdir. Elmdə gender bərabərliyi beynəlxalq inkişaf məqsədlərinə nail olmaq üçün böyük əhəmiyyətə malikdir.

Mədəniyyətin, səhiyyənin və idmanın inkişafına böyük qayğı göstərən ölkəmizin birinci xanımı təhsil və elmin təşviqinin, bu istiqamətdə qlobal layihələrin gerçəkləşdirilməsinin də mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdıraraq, Azərbaycan qadınlarının ictimai həyatda fəal olduqlarını, müasir dövrdə ötən illərə nisbətən elmi fəaliyyətlə məşğul olan qadınların sayının getdikcə artdığını nəzərə çatdırmışdır. Bir çox azərbaycanlı qadın elmə böyük töhfələr verib və onlar elm sahəsi ilə məşğul olan qızlar və gənc xanımlar üçün əsl ilham mənbəyidir. Bu gün Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Qadınlar ölkəmizdə ali təhsil ocaqlarında magistrlərin 54 faizini, fəlsəfə doktorlarının 51 faizini, elmlər doktoru dərəcəsinə malik olanların 46 faizini, tədqiqatçıların 56 faizini təşkil edir. Azərbaycan Milli Elmlər Akademiyasının ümumi kollektivinin 59 faizi qadınlardan ibarətdir. Dünyada elm, texnologiya, mühəndislik və riyaziyyat fənləri üzrə təhsil alanların 35 faizi qızlardır. Bizim ölkədə bu rəqəm 40 faizdir, yəni orta dünya göstəricisindən yüksəkdir. Müstəqil Azərbaycan qadınları parlamentdə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsildə, səhiyyədə və digər sahələrdə kişilərlə bərabər rəhbər vəzifələrdə təmsil olunurlar.

Bununla yanaşı qeyd edilmişdir ki, sürətlə dəyişən dünyamızda qızların təhsili və onların elm sahəsində iştirakı yeni çağırışlara müvafiq olmalıdır. Lakin bu gün ən vacib məsələ kimi qızların və gənc xanımların elmdə iştirak səviyyəsinin yaxşılaşdırılması üçün münbit şəraitin yaradılmasının və elm sahəsində gender boşluğunun aradan qaldırılmasının zəruriliyi vurğulanmışdır.

Qlobal səviyyədə təhsil sahəsindəki mövcud boşluğun aradan qaldırılması, bu sferada gender bərabərliyinin təmin edilməsi də həlli vacib problemlərdəndir. Gənc qızların təhsili və universitetlərdə tələbə elmi cəmiyyətlərinin fəaliyyətinə, daha sonra elmi tədqiqatlara cəlb edilməsi, qadınların inklüziv və keyfiyyətli təhsillə təmin edilməsi, onların elm sahəsində mövqe qazanmasına təkan verilməsi mühüm məsələlərdir.

Bütün dünyada cəmiyyətin sosial-iqtisadi tərəqqisinin aparıcı qüvvəsi olan elm, texnologiya və innovasiyaların daha geniş vüsət tapması, qadınlar və qızların sabahın əmək bazarında lazımi bacarıqlara yiyələnmələri üçün innovativ maliyyə mexanizmlərinin yaradılması da qlobal çağırışlardandır. Ölkəmizdə qadın sahibkarlığının inkişafına dövlət qayğısı, Prezident İlham Əliyevin bu sahənin tərəqqisi ilə bağlı tövsiyələri, imzaladığı sənədlər, uğurla gerçəkləşdirilən dövlət proqramları və islahatlar günümüzün reallığıdır. Regionlarda qadın sahibkarlığının inkişaf istiqamətlərinin daha da genişləndirilməsi, sahəvi fəaliyyətin daha miqyaslı, qlobal fəaliyyətlə əvəz olunması, rəqabətə davamlılığın artırılması, biznes mühitinin yaxşılaşdırılması, istehsal yönümlü ixtisaslaşmış sahələrin yaradılması, ən başlıcası isə, gender bərabərliyinə əməl olunması, müvafiq strategiyalar, innovativ layihələr, fikrimizcə, məqsədəuyğundur və çağdaş günümüzün vacib məsələləridir.

Bütün dünyanın koronavirus təhlükəsi ilə üzləşdiyi, bu amansız xəstəliyin çox sayda insanın həyatına son qoyduğu bir dövrdə gərgin şəraitdə çalışan, hətta bəzən həyatını itirən tibb işçilərinin əməyi göz önündədir. COVID-19-la mübarizənin ön cəbhəsində dayanan, ölümlə çarpışan, test üsullarının təkmilləşdirilməsində, vaksinlərin hazırlanmasında həlledici rol oynayan tədqiqatçı qadın alimlər, həkimlər və orta ixtisas tibb işçilərinin səyləri həqiqətən dərin hörmətə layiqdir.

Azərbaycan xalqı 44 gün çəkmiş Vətən müharibəsində qazanılmış möhtəşəm Zəfərin bizə yaşatdığı fərəh hissinin hələ də təsiri altındadır. Nəhəng Qələbəni bizə bəxş etməklə tarix yazmış Müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli əsgər və zabitlərə minnətdarlığımız tükənməzdir. Ölkəmizin birinci xanımı Mehriban Əliyevanın müdrik Prezidentin hər an yanında olmasından, onunla çiyin-çiyinə xalqımızın haqq işinə, o cümlədən işğaldan azad edilmiş Qarabağ torpaqlarında quruculuq işlərinə dəstəyindən qürur duyuruq. Qələbə çalmaq naminə döyüşmüş, heç vaxt unudulmayacaq insanların - qazilərin, Vətən uğrunda canından keçmiş şəhidlərin ailə üzvlərini, şəhid analarını, bacılarını, dul qalmış gəlinləri, atasını itirmiş məktəbli qızları 8 Mart Beynəlxalq Qadınlar Günü ərəfəsində də sayğı ilə xatırlayırıq. Onların gələcək həyatının təmin edilməsi, təhsilə, məşğulluğa, əməyə cəlb edilməsi yönündə görülən işlər, atılan addımlar təqdirəlayiq və ürəkaçandır.

***Zemfira MƏHƏRRƏMLİ,***
***Əməkdar jurnalist***

# Sülh, ədalət və mərhəmət günü

## Mehriban Əliyevanın parlaq fəaliyyəti Azərbaycan qadınının yüksək potensialının ən möhtəşəm təzahürüdür

8 Mart uzun onilliklərdir ki, dünya tərəfindən Beynəlxalq Qadınlar Günü kimi qeyd edilir. Qadın hərəkatının tarixi 1857-ci ildə Nyu Yorkda qadınların 12 saatlıq iş gününə etirazı ilə başlayıb və, nəhayət, 1910-cu ildə alman sosialistlərinin görkəmli nümayəndəsi Klara Setkin 8 Martın dünya qadınlar günü kimi qeyd edilməsinə nail olub. 1977-ci ildə isə BMT bu günü Beynəlxalq Qadınlar Günü kimi rəsmiləşdirib.

Əslində bu günün beynəlxalq səviyyədə qeyd edilməsi çox mütərəqqi bir haldır. Dünyada çoxsaylı dövlətlər var və hər bir dövlətdə də qadına münasibət adətən fərqli olur. Həmçinin insan hüquqlarının təməl prinsiplərinə hörmət səviyyəsi qadına münasibətin əsaslarına da təsir edir.



Təəssüf ki, dünyada hələ də elə ölkələr var ki, orada qadınların ümumiyyətlə, hüquqları yoxdur. Bu cür ölkələrdə qadınlar istismar edilir, kölə kimi satılır, işgəncələrə məruz qalır, onların siyasi və digər hüquqları tamamilə əllərindən alınır. Hətta elə dövlətlər var ki, orada qadınların hüquqları məhz dövlət səviyyəsində pozulur və məhdudlaşdırılır.

Tarixə nəzər saldıqda görürük ki, Yaxın Şərqdə qurulan dövlətlərdə qadın amili Avropa ilə müqayisədə fərqli mərhələlərdən keçmişdir. Məsələn, Şərqdə qadın həmişə ismət və ləyaqət simvolu olmuşdur. Qadınların cəmiyyətdə aktiv görünməsi və fəaliyyət göstərməsi bəzi dövrlərdə qadağan olunsa da, XX əsrin əvvəllərindən başlayaraq, bu məhdudiyyət tədricən aradan götürülmüşdür.

Bu kontekstdə mükəmməl Azərbaycan təcrübəsi özünü tarixi təhlillərlə xüsusən büruzə verir. Azərbaycan qadınının potensialı hər zaman yüksək olub və Şərqdə daim müсbət yönümdə fərqlənib. Şərqdə qadınlara seçkilərdə iştirak etmək hüququ da ilk dəfə Azərbaycan qadınına verilmişdir. Təbii ki, bu, çox qürurverici faktdır. Hələ əsrin əvvəllərində Azərbaycan milyonçusu Hacı Zeynalabdin Tağıyevin Tiflisdə "Qızlar məktəbi"ni yaratması Azərbaycan qadınının maariflənməsi və irəli çəkilməsində ən önəmli addımlardan biri olmuşdur. Millətimizin gələcəyini düşünən ağıllı insanlar Azərbaycan qadınının cahil və savadsız olmasına razı olmamış, bunun üçün əllərindən gələni etmişlər. Həmin dövrlərdə dini xurafat üstünlük təşkil etdiyinə görə təbii ki, bu işləri görmək, həmçinin həmin məktəblərdə təhsil almaq güclü iradə və cəsarət tələb etmiş, buna maneələr törədən din pərdəsi altında gizlənən qüvvələr olmuşdur. Azərbaycan qadını bütün bu çətinlikləri dəf edərək təhsil almış və elmə yiyələnərək müasir səviyyəyə gəlib çatmışdır.

Hazırda Azərbaycan qadın hüquqlarına dəyər verən dövlətlər arasında öndə gedir. 1998-ci ildə Azərbaycanda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Azərbaycan həm də Avropa Şurasının qadınlarla bağlı bürosunda aktiv şəkildə təmsil olunur, BMT-nin "Qadın məsələləri üzrə komissiyası"nın tamhüquqlu üzvüdür. 1995-ci ildə isə Azərbaycan rəsmi şəkildə qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında beynəlxalq konvensiyaya qoşulub.

Dövlət başçısı İlham Əliyev ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırıb, onların hərtərəfli fəaliyyətinə geniş meydan verib. Məhz bunun sayəsində də lider qadınlar yetişir və Azərbaycan qadınının cəmiyyətdə yeri, nüfuzu daha da artır. Azərbaycan qadınları mühüm dövlət qurumlarında, parlament və bələdiyyələrdə uğurla təmsil olunur, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərdə fəal iştirak edir, ölkə idmanının inkişafına böyük töhfələr verir.

Hər il bayram günü ərəfəsində dövlət başçısı 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik ünvanlayır, ölkənin ictimai, siyasi və mədəni fəaliyyətində fərqlənən qadınlara fəxri adlar, orden və medallar verir.

Tək ölkəmizin deyil, ümumilikdə Cənubi Qafqazın ən aparıcı partiyası olan Yeni Azərbaycan Partiyasında yüz minlərlə qadın təmsil olunur, fərqlənən qadınlar müxtəlif vəzifələrə irəli çəkilir. Azərbaycan qadınları artıq cəmiyyətin aparıcı qüvvəsinə çevriliblər. YAP-ın bu günlərdə keçirilən son qurultayında qadınların partiya rəhbərliyində, həmçinin İdarə Heyətində geniş təmsilçilik qazanması təşkilatımızın qadın mövzusuna nə qədər böyük önəm verdiyini bir daha təsdiq etdi.

Milli-əxlaqi dəyərlərimiz, adət-ənənələrimiz, dilimizin saflığı məhz analarımızın müdrikliyi sayəsində çətin və mürəkkəb dövrlərin sınağından çıxa bilib. Dünyanın bir sıra ölkələrinin qadınlarından əvvəl seçib-seçilmək hüququ əldə etməsi, elm, mədəniyyət və digər sahələrdə uğurlar qazanması Azərbaycan qadınının mədəni və intellektual səviyyəsindən xəbər verir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ölkəmizin ictimai və siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətçiliyimiz və xalqımızın rifahı naminə gördüyü işlər və xeyirxah əməlləri bu gün Azərbaycan qadınının nə qədər fəal olduğunu təsdiq edir. Mehriban xanımın hərtərəfli parlaq fəaliyyəti, xeyirxahlıq missiyası, mədəniyyətimizin bütün dünyada təbliği sayəsində gördüyü işlər əsl örnəkdir və Azərbaycan qadınının yüksək potensialının ən möhtəşəm təzahürüdür.

Azərbaycan qadını həm də vətənpərvərdir. 44 günlük Vətən müharibəsi Azərbaycan qadınının öz doğma vətəninə, torpağına və bayrağına nə qədər bağlı olduğunu bir daha göstərdi. Yüzlərlə həkim və tibb bacısının, mətbuat işçisinin ön xətdə əsgərlərimizin yanında olması Azərbaycan qadınının cəsarətinin göstəricisidir. Qəhrəman Azərbaycan əsgərini dünyaya gətirən, böyüdən, onu vətənpərvər ruhda tərbiyə edən də məhz Azərbaycan qadınıdır. Azərbaycan qadını ölkəmizin, dövlətimizin və millətimizin gələcək istiqbalının təməlidir.

Bu baxımdan 8 Mart tarixini yalnız Qadınlar Günü kimi qeyd etmək kifayət etməz. Bu tarix qadınların timsalında həm də Sülh, Ədalət və Mərhəmət günüdür.

***Ruhi ƏLİYEVA,***
***YAP Qadınlar Şurasının üzvü***

Tarixləşən heykəllər

# Azadlığın, mübarizliyin simvolu

Tarix səhifələrində, ədəbi-bədii əsərlərdə Azərbaycan qadınının qəhrəmanlığını, mərdliyini, fədakarlığını, sədaqətini əks və vəsf edən çox nümunələr var. Azərbaycan qadını bütün dövrlərdə milli adətləri, vətənpərvərliyi, əxlaqi keyfiyyətləri, düşüncə tərzi ilə tanınıb, sağlam cəmiyyətin, ailənin təminatı olub. Azərbaycan cəmiyyətində qadına münasibət hər zaman çox həssas məsələlərdən biri hesab edilib. Yazıçılarımız, şairlərimiz, rəssamlarımız, heykəltəraşlarımız da öz əsərlərində bu mövzuya diqqətlə yanaşıblar. XX əsrin böyük mütəfəkkirlərindən biri, görkəmli şair Hüseyn Cavid yazırdı:

*Qadın gülərsə, bu issız mühitimiz güləcək,*
*Sürüklənən bəşəriyyət qadınla yüksələcək...*



Qadını azad olmayan cəmiyyət tərəqqi edə bilməz. Bu fikir bütün dövrlərdə Azərbaycanın tərəqqipərvər insanları tərəfindən dəstəklənib. Qadınların çadrasız gəzmələrinə, təhsil almalarına qarşı çıxanlar tənqid olunub.

Qadın azadlığı mövzusunun ən uğurlu həllini tapdığı əsərlərdən biri istedadlı heykəltəraş Fuad Əbdürrəhmanovun müəllifi olduğu, hazırda Bakı şəhərində, "Nizami" metrostansiyasının qarşısında ucalan "Azad qadın" heykəlidir.

1915-ci ildə Nuxada (indiki Şəki) anadan olan Fuad Əbdürrəhmanov həm rəssamlıq məktəbində, həm də Sankt-Peterburqda Memarlıq və Boyakarlıq İnsitutunda təhsil alarkən özünəməxsus istedadı ilə seçilib. O, əsasən Şərq ruhlu, Qərb düşüncəli insan kimi tanınıb. Əsərlərində də bunu göstərib. Müəllifi olduğu Buxaradakı İbn Sina, Düşənbədəki Rüdəkinin abidələrində də Şərq elementi xüsusilə nəzərə çarpır.

"Azad qadın" heykəli Fuad Əbdürrəhmanovun ən uğurlu əsərlərindən biridir. Abidənin memarı isə Mikayıl Hüseynovdur. Heykəlin prototipi Fuad Əbdürrəhmanovun həyat yoldaşı Xanım Əbdürrəhmanova (Rəhmanzadə) olub (Xanım Əbdürrəhmanova Xalq rəssamı Maral Rəhmanzadənin bacısı idi).

Onu da diqqətə çatdıraq ki, "Azad qadın" heykəltəraş Fuad Əbdürrəhmanovun Azərbaycan qadını mövzusuna ilk müraciəti olmayıb. Hələ 1951-ci ildə o, "Azərbaycan qadını" adlı heykəl hazırlayıb. Həmin əsərində Fuad Əbdürrəhmanov müasir azərbaycanlı qadının obrazını yaradıb. Bu, əlində kitab işıqlı gələcəyə doğru inamla addımlayan milli geyimli qadının simasında heykəltəraş yaşadığı dövrün Azərbaycan qadınlarına xas güclü daxili iradə, mənəvi zənginlik, səmimilik və cazibədarlığı əks etdirib.

Sənətkar 1957-ci ildə ilkin olaraq gipsdən həmin əsərin tunc versiyasını hazırlayıb. Bu heykəl "Azadlıq" adı ilə İncəsənət muzeyində sərgilənib. Muzeydə əsəri görən sənətkarlar onun şəhərin mərkəzi hissələrindən birində yüksəldilməsinin labüdlüyünü söyləyiblər. Bundan sonra Fuad Əbdürrəhmanov heykəlin böyük versiyası üzərində işə başlayıb. Və çalışıb ki, Azərbaycan qadınının müstəqilliyini daha qabarıq ifadə etsin. 1959-cu ildə heykəl Leninqradda tuncdan tökülüb. Sonradan Azərbaycana gətirilib.

Monumental heykəl 1960-cı ildə paytaxtın Cəfər Cabbarlı və Zivər bəy Əhmədbəyov küçələrinin kəsişməsində ucaldılıb. O vaxtdan "Azad qadın" heykəli azadlığa, yeniliyə, inkişafa və tərəqqiyə can atan Azərbaycan qadınının rəmzinə çevrilib.

"Azad qadın"adək Azərbaycan qadınları böyük tarixi yol keçib. 1908-ci ildə Azərbaycanda çadraya qarşı mübarizə Bakıda liberal burjua tərəfdarları tərəfindən başlanılıb. Ancaq xürafatçı din tərəfdarları etirazların qarşısını almağa çalışıblar. Zadəganlar geri çəkilməyə məcbur olublar. Razılığa gəliblər ki, zadəganlar çadraya qarşı etirazları dayandıracaq, dindarlar isə Avropa geyimli xanımları təhqir etməyəcəklər.

1920-ci ildə Azərbaycanda hakimiyyəti ələ keçirən şura hökuməti qadınların sosial statusunun dəyişməsi, onların ictimaiyyət arasına çıxaraq çalışmaları üçün ardıcıl tədbirlər həyata keçirməyə başlayıb. Bu dəyişikliklər Azərbaycan qadınlarının geyiminə də təsir göstərib. Daha əvvəl qarşısı alınmış çadra əleyhinə etirazlar 1920-ci illərdə yenidən baş qaldırıb. Cəmiyyətdəki mövhumatçı qüvvələr hərəkətə keçib. Çadradan və xürafatdan imtina edən qız-gəlinlər çətinliklərlə üzləşiblər. Bakıda çadrasını atmış komsomolçu Səriyyə Xəlilova atası tərəfindən qətlə yetirilib. Ancaq bu böyük faciə, maneələr, təqiblər, təhdidlər qadınların gözlərini qorxutmayıb və sonunda arzularına çatıblar. Tənqid və sıxıntılardan uzaqlaşaraq ölkənin ictimai həyatında iştirak etmək, təhsil almaq və işləmək hüququ qazanıbar.

Fuad Əbdürrəhmanovun "Azad qadın" əsərində təsvir olunan çadrasını ataraq müasirliyə qərar verən azad Azərbaycan qadını xalqın ağır keçmişini, bugününü və inamlı gələcəyini özündə birləşdirib. Mövhümatçılığı, hüquqsuzluğunu, gender bərabərsizliyini büründüyü çadra ilə birlikdə ataraq işığa, müstəqilliyə çıxan azərbaycanlı qadının cəmiyyətdə dəyişən rolu və hüququ bu daş əsərdə olduqca təsirli şəkildə təsvir edilib. Hündür pyedestal üzərində ucaldılmış çadrasını çıxaran gənc azərbaycanlı xanımın heykəli Azərbaycan və Şərq qadınının sosial bərabərliyinin simvolu kimi təqdim edilib.

Heykəlin Cəfər Cabbarlının "Sevil" pyesindən ilhamlanaraq hazırlandığı vurğulanıb. "Azad qadın" da, Sevil də çadrasını başından yerə atmaqla əsarətə qarşı çıxır. Fuad Əbdürrəhmanov abidənin daşıdığı ideyanı belə açıqlayıb: "Azərbaycan qadınının azadlığı ideyası məni çoxdan özünə cəlb edirdi. Heykəl üzərində işə başlayarkən nədənsə kölgələrə ilişmiş qartal təsəvvür eləyirdim. O, çarpalanır və nəhayət ki, azadlığa çıxır. Bir saniyə də keçir və o, yüksələrək günəşli səmaya can atır".

Nəinki qadınları, eləcə də bütün insanları sanki köləliyi ayaqlayaraq döyüşə aparan "Azad qadın" tariximizin keşməkeşli bir şəhifəsinin daşlaşmış təsviridir. Bu abidə öz hüquq və azadlıqları uğrunda mübarizə aparan, çətinlik və haqqsızlıqlarla qarşılaşsa da geri çəkilməyən Azərbaycan qadınlarının ümumiləşdirilmiş obrazıdır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

8 Mart Beynəlxalq Qadınlar Günüdür

# Sumqayıtın 55 yaşlı bayramı

Yaşı əsrləri adlayan şəhərlərin keçmişi ilə bağlı söz demək bəzən yanlışlığa gətirib çıxarır. Hardasa min illər haqqında yalnız arxiv sənədləri danışa bilər. Amma yaxın keçmişlə bağlı canlı insanların söhbətləri səni dünənin tarixinə, həqiqətin şahidinə aparır. Sumqayıtda 8 Mart Qadınlar bayramının ilk dəfə qeyd olunması belə tarixlərdəndir.

Yaranışının 72-ci ilinə yaxınlaşan Sumqayıt 1949-cu ildə sənaye şəhəri statusunu almış və hazırda bu şərəfli adı layiqincə daşıyır. Cənubi Qafqazın nəhəng sənaye mərkəzi olan Sumqayıt İkinci Dünya müharibəsindən sonra yaradılıb. Hələ müharibə illərində yeni şəhərin salınacağı ideyası vardı. Lakin müharibə bu işi bir neçə il gecikdirdi.

Boz çöllərdə, çirkli suların axıdıldığı bir ərazidə salınan Sumqayıt sovet dönəminin simvol şəhərlərindən biri oldu. Həmin illər keçmiş SSRİ-də eyni vaxtda bir neçə şəhərin yaradılmasına qərar verilmişdi. İndiki Sumqayıtın ərazisində yeni şəhərin salınması haqqında qərar qəbul edildikdən sonra buraya hər tərəfdən axın başladı. Müttəfiq respublikalardan da xeyli insan işləmək üçün Sumqayıta üz tutdu. Hətta həmin dövrdə böyük amnistiya oldu. Həbsdən buraxılanların bir hissəsi Sumqayıta işləməyə gəldi. Az müddət ərzində şəhərin müxtəlif istiqamətlərində yeni gələnlərin yaşaması üçün "barak"lar salınmağa başladı.

Bura işləməyə gələnlərin arasında qadınlar da var idi. Şəhərin elə bir ərazisi yox idi ki, orada işləyənlər cərgəsində qadınlar olmasın. Elə bil onlar kişilərdən daha yaxşı işləmək, daha çox uğurlar əldə etmək üçün yarışa girmişdilər. Millətindən, yaşından asılı olmayaraq insanlar, o cümlədən xanımlar Sumqayıta doğma şəhərləri kimi bağlanırdılar. Onların çoxu burada işləməklə yanaşı, ailə qurur, yeni şəhərin sakinlərinə çevrilirdilər.

Sumqayıtda 8 Mart Beynəlxalq Qadınlar Gününün qeyd edilməsinin də qəribə tarixi var. Məlumat üçün bildirək ki, keçmiş SSRİ-də həmin bayram 1965-ci ildən qeyd edilməyə başlamışdı. 1966-cı il martın 1-də şəhər partiya komitəsi tikinti təşkilatlarına göstəriş verir ki, işdə fəallıq göstərən qızların adlarını yazıb rəhbərliyə bildirsinlər. Ertəsi gün həmin qadınlarla söhbətlər aparılanda məlum olur ki, onların çoxu bu bayramla bağlı məlumatsızdır.

8 Mart bayramının keçirilməsini təmin etmək üçün təşkilat komitəsi yaradılır. Onu da qeyd edək ki, komitənin üzvləri əsasən rus və digər millətlərin nümayəndələri idi. Onların içində bircə nəfər azarbaycanlı Gülbahar Vəliyeva vardı. Elə 8 Mart bayramının Sumqayıtda keçirilən ilk tədbirində ilk fəxri fərman da Gülbahara verildi. Digər mükafatlananlar rus, latış, erməni, ukraynalı, alman, gürcü, eston, belarus, macar millətindən olanlar idi. Həmin gün onlara, eləcə də şəhərin idarə və müəssisələrində çalışan bütün qadınlara bir aylıq əməkhaqqı həcmində mükafat da verildi.

Ümumiyyətlə, martın 8-də şəhərin hər yerində bayram əhvali-ruhiyyəsi vardı. Tikilməkdə olan zavodlarda, yeni salınan qəsəbələrdə xüsusi səhnələr quraşdırılmışdı. Musiqi sədaları bütün şəhəri bürümüşdü.

Artıq o ilk bayramdan yalnız şirin xatirələr qalıb. İndi Sumqayıt daha möhtəşəm, sumqayıtlılar daha vətənpərvərdirlər. Sumqayıtlı xanımlar isə bu möhtəşəmliyi yaradan vətənpərvər insanların fövqündədirlər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***






# Azərbaycan qadını bu gün layiq olduğu mövqeyə yüksəlmişdir

*Əvvəli 1-ci səh.*

## Qadın gülərsə...

Ölkəmizdə qadın fəallığı zəngin tarixi ənənələrə malikdir. Epos mədəniyyətimizdən başlamış ən müxtəlif tarixi dövrlərdəki görkəmli qadın şəxsiyyətlərimizin həyat və fəaliyyətinə qədər parlaq örnəklər təqdim edən bu ənənələr ötən əsrin əvvəllərindən xüsusilə böyük inkişaf yoluna qədəm qoymuşdur. Müstəqil dövlətimizin sələfi olan Azərbaycan Xalq Cümhuriyyəti qadınların seçib-seçilmək hüququnu tanıyaraq tarixdə böyük bir səhifə açmışdır. Sovet dövründə də Azərbaycan qadını öz potensialını reallaşdırmaq üçün geniş imkanlar əldə etmişdir.

Ulu Öndər Heydər Əliyevin ötən əsrin 60-cı illərindən başlayaraq ölkəmizə rəhbərliyi dövrü isə həyatımızın müxtəlif sahələrində olduğu kimi, cəmiyyətimizdə qadın fəallığı ənənələrinin də inkişafı dövrüdür. Bu tarixi reallıq heç də səbəbsiz olmayıb, Ümummilli Liderin həyata keçirdiyi milli inkişaf siyasətinin məntiqindən irəli gəlirdi.

Ulu Öndərin daha bir böyüklüyü həm də onda idi ki, Azərbaycan qadınına layiq olduğu dəyəri verirdi. Qadınlarımızın ictimai fəallığına mühit yaradırdı. İnkişaf, tərəqqi qapılarını onların üzünə açırdı. Azərbaycan qadınını mütəşəkkil bir qüvvə kimi səfərbər edib ümumxalq mübarizəsinə ruhlandırırdı, böyük işlərə istiqamətləndirir, cəmiyyətdə və dövlətdə layiq olduğu mövqeyə ucaldırdı, ona həm də ən yüksək vəzifələrdə etimad göstərirdi. Xanımlarımızın məsuliyyətinə, tapşırılan işlərin öhdəsindən ləyaqətlə gələ biləcəklərinə qəlbən inanırdı. Və Azərbaycan qadınları Heydər Əliyevi bu inamında, güvənində heç vaxt yanıltmadı, hər zaman o böyük şəxsiyyətin etimadını doğrultmağa çalışdı.

Qadınların ictimai fəallığının ilkin mühüm şərti onlara bərabər imkanlar mühitinin yaradılmasıdır. Belə bir mühit təhsildən, müəyyən sahələrdə çalışıb karyera irəliləyişlərinə nail olmağa, cəmiyyət üçün faydalı nəticələr yaratmağa, qadınlara qarşı fərqli yanaşmaların ortadan götürülməsinə qədər ən müxtəlif istiqamətləri əhatə edir. Ümummilli Lider Heydər Əliyev fərqində idi ki, bəşəriyyətin yüksəlişi bu nəcib zümrənin inkişafından, rifahından, xoşbəxtliyindən başlanır. Ona görə ki, həyatımızda hər hadisənin təməlində duran tərbiyədir. Fərdlərin tərbiyəsində isə Ana kimi ali bir missiyaya malik qadınların rolu çox böyükdür. Bütün bunları nəzərə alaraq Heydər Əliyev Azərbaycan qadınlarına təhsil almaq, özlərini inkişaf etdirmək imkanlarına yol açırdı. Məhz Ulu Öndərin ölkəmizə rəhbərliyi dövründə tarlalarda, müxtəlif istehsal və xidmət müəssisələrində çalışıb fayda verən nə qədər gənc qızımız tələbə adını qazanıb taleyində böyük bir dönüşə nail oldu. Müxtəlif vəzifə pillələrində irəli çəkildilər. Öz potensialını reallaşdırmaq üçün imkanlar qazandılar və onlara göstərilən etimadı doğrultdular. Milli mədəniyyətimizi bütün dünyada layiqincə təmsil edən neçə-neçə qadın alimimiz, sənət xadimimiz yetişdi.

Azərbaycan qadınının dünyaya gətirib tərbiyələndirdiyi övladlar Vətənin azadlığına nail oldular. Silah götürüb ölkəmizin ərazi bütövlüyü uğrunda vuruşdular, Vətən uğrunda canlarından keçdilər. Azərbaycan qadınının taleyinə "şəhid anası", "şəhid xanımı", "şəhid bacısı", "şəhid qızı" olmaq qisməti yazıldı. Neçə-neçə Azərbaycan qadını kişilərlə bərabər döyüşlərə atıldı, Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda həyatını fəda etdi.

## Qadın dayaqdır

1998-ci ilin iyununda qadın fəalları ilə görüşü zamanı Ulu Öndər deyirdi: "Mən bütün fəaliyyətimdə həmişə qadınlara arxalanmışam, onları özümün dayağım hesab etmişəm. Bunlar sadəcə sözlər deyildir, mən onları sınaqdan keçirmişəm. Mənim həyatımın çox ağır və çətin anları olubdur. Bütün bu mərhələlərdə qadınlar özlərini həmişə çox etibarlı göstəriblər və sınaqlardan şərəflə çıxıblar... Mən əminəm ki, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunda, iqtisadi islahatlarda və digər proseslərdə siz həmişə fəal olacaqsınız və ön sıralarda gedəcəksiniz".

Ulu Öndərin bu istiqamətdə müəyyən etdiyi vəzifələrin daha ardıcıl və mütəşəkkil şəkildə həyata keçirilməsi üçün 1998-ci ildə ölkəmizdə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmış, eyni zamanda Azərbaycan qadın hüquqlarının müdafiəsi məqsədi daşıyan bir sıra konvensiyalara qoşulmuş, müxtəlif beynəlxalq platformalarda təmsil olunmağa başlamışdır.

## Dövlət siyasətinin mühüm istiqamətlərindən biri

Ümummilli Liderin müəyyənləşdirdiyi bu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük uğurla davam etdirir. Dövlət rəhbərimizin həyata keçirdiyi siyasətdə gender bərabərliyi məsələləri xüsusi yer tutur. Qadın hüquqlarının müdafiəsi, xanımlarımız üçün yaradılmış imkanların zaman-zaman daha da genişləndirilməsi dövlət başçısının həyata keçirdiyi siyasətin mühüm istiqamətlərindən olmuşdur. 2006-cı ildə Prezidentin fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin bazasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması da bunun bariz nümunəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda qadın siyasəti yüksəliş mərhələsinə qədəm qoymuş, ölkəmiz bu sahədə də dünyanın öncül, nümunəvi dövlətləri sırasında qərarlaşmışdır. Ötən illər ərzində qadınlarla bağlı hüquqi baza daha da təkmilləşdirilmişdir. Xanımlarımız üçün bərabər hüquqların təmin edilməsi məqsədilə "Gender bərabərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunlar qəbul olunmuşdur. Qadın hüquqları məsələsi konkret qanunlarla yanaşı, bir sıra məcəllələrlə (Ailə, Mülki, Cinayət, İnzibati Xətalar və s.) təsbit edilmişdir. Eyni zamanda bir çox dövlət proqramlarında ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında qadınların rolunun artırılması məsələlərinə xüsusi yer verilmişdir. Həyata keçirilən bütün bu tədbirlər sayəsində Azərbaycanın qadın fəallığı ənənələri tarixində böyük bir səhifə açılmışdır. Ən mühümü isə, insanlarımızın təfəkküründə yeni düşüncə tərzi formalaşmışdır. Cəmiyyətimizdə xanımlarımızın inkişafını əngəlləyən, onların öz potensial imkanlarını reallaşdırmalarına mane olan bir sıra stereotiplər qırılmışdır. Bu gün qadın sözünü cəmiyyətimizdə müəyyən məhdudiyyətlər kimi qəbul edən insanların sayı azalır. Getdikcə daha çox insan anlamağa başlayır ki, qadın sözünün yaratdığı fərq imkanların qeyri-bərabərliyi deyil. İş və şəxsi həyatda daha çox fədakarlıqdır, daha çox əməksevərlikdir, məsuliyyətdir, məqsədyönlülükdür, dünyaya və insanlara faydalı olmaq istəyidir. Azərbaycan qadını bunu təkcə sözlə deyil, əməlləri ilə sübuta yetirir. Göstərir ki, mühit yaradılarsa, şərait təmin edilərsə, zərif cinsin nümayəndələri də kişilərlə çiyin-çiyinə böyük işlər görə, parlaq nəticələr yarada bilər.

## Birliyin, bütövlüyün, inamın rəmzi

Cəmiyyətin hər zaman nümunələr yaradan şəxsiyyətlərə ehtiyacı var. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ölkəmiz və ümumilikdə dünya qadınları üçün belə bir örnəyi yaradır. Öz çoxşaxəli fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadınının özünütəsdiqi rolunda çıxış edir, onun nüfuzunu yüksəklərə qaldırır. Dünya Mehriban xanımın simasında Azərbaycan qadınını dərin biliyə, yüksək intellektə, peşəkar təşkilatçılıq qabiliyyətinə, bəşəriyyətin bu günü və gələcəyi ilə bağlı yüksək məsuliyyət hissinə, ali ideallara malik obrazda tanıyır, şəxsiyyətinə dərin rəğbət bəsləyir.

Birinci vitse-prezidentin təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı layihələr, Heydər Əliyev Fondunun Azərbaycanda və müxtəlif ölkələrdə uğurla gördüyü işlər, inkişafa doğru hər addımı sosial reallığı dəyişən, daha gözəl, daha sağlam, hər kəs tərəfindən məmnunluqla qarşılanan yaradıcılıq məzmunu təqdim edir. Cəmiyyətin firavanlığına bu proseslərin əsas məqsədi kimi yanaşır, insanı müasir həyatımızın ən qiymətli dəyəri kimi qəbul edir. Bu baxımdan Mehriban xanımın fəaliyyətində məsuliyyət yükü ağır, eyni zamanda şərəflidir. Çünki onun həyata keçirdiyi ali məqsədlərdir. Bunlar o dəyərlərdir ki, tarixin heç bir dönəmində başqalaşmır. Dünyanı yaşadan, gələcəyə ümidi, inamı sarsılmaz edən bələlərinin haqq yolunda apardıqları qətiyyətli fəaliyyətləri hər addımda ümumxalq dəstəyi ilə əhatə olunur.

Mehriban Əliyevanın dünyaya, həyata, zamana baxışının əsasında xalqa, ümumilikdə insanlara intəhasız sevgisi, böyük vətənpərvərliyi, bəşəri ideyalara sadiqliyi, zərif və eyni zamanda mükəmməl humanizmi durur. Azərbaycan qadınının ictimai fəallığında o, öz çoxşaxəli işləri, strateji baxışları ilə yeni ənənələr formalaşdırır. Birinci vitse-prezident qadın hərəkatının müasir forma və metodlarını irəli sürərək onların uğurunu təmin edir.

## Dəyərlərin əzəməti

Bu gün hamıya məlumdur ki, qadınların ictimai həyatda aktiv iştirakı məsələsi zaman keçdikcə daha da aktuallaşır. İslam dünyasının elm, təhsil və mədəniyyət təşkilatı olan ISESCO 2021-ci ili İslam aləmində "Qadın İli" elan edib. Bu, həmin qurumun 2020-2030-cu illərdə strateji planının tərkib hissəsidir. Belə bir qərarda əsas məqsəd isə İslam dünyasında sosial, iqtisadi və mədəni həyatda bu nəcib zümrənin rolunu gücləndirmək, gənc qızların müasir standartlara uyğun daha mükəmməl təhsil almasını təmin etməkdən ibarətdir. Təbii ki, ISESCO-nun bu qərarı Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyır. Çünki Azərbaycan İslam aləminin bir hissəsi kimi həmin mütərəqqi məqsədləri hələ ötən əsrin əvvəllərindən həyata keçirmiş, bütün müsəlman dövlətləri üçün xoş bir nümunə yaradan ölkələrdən olmuşdur.

Mehriban xanım Əliyevanın bu tədbirdəki çıxışı Azərbaycan qadınının yüksəkdə dayanmasının daha bir təcəssümü idi. Onu da xatırladaq ki, 11 fevral tarixini "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü elan edən qətnamə BMT Baş Assambleyası tərəfindən qəbul olunub. Mehriban xanım öz nitqində qadınlar üçün gələcək inkişafın başlıca yollarını göstərmişdi. Qlobal çağırışlara cavab vermək üçün elm, texnologiya və innovasiyaların həyatımızda artıq bir zərurətə çevrildiyini vurğulayaraq bildirmişdi ki, elm və gender bərabərliyi "Davamlı İnkişaf üzrə 2030 Gündəliyi" daxil olmaqla, beynəlxalq inkişaf məqsədlərinə nail olunması üçün mühüm əhəmiyyətə malikdir. Qeyd etdi ki, ISESCO-nun 2021-ci ili "Qadınlar ili" elan etməsi ilə bağlı təşəbbüsü yalnız təşkilat tərəfindən onların cəmiyyətimizdəki roluna verilən əhəmiyyətin təzahürü deyil. Bu, həmçinin qadın və qızların daha firavan və təhlükəsiz dünya naminə misilsiz töhfəsinin təsdiqidir. Mehriban xanım onu da söylədi ki, biz bu gün COVID-19-la mübarizənin ön cəbhəsində dayanan qadın alim, həkim və səhiyyə işçilərinə ehtiramımızı ifadə etməliyik.

Azərbaycanın Birinci vise-prezidenti çıxışında xüsusi vurğulamışdı: "Mən yalnız onunla fəxr etmirəm ki, dünyada ilk dəfə, - bir əsrdən öncə, - sənaye üsulu ilə neft quyusunun qazıldığı, Şərqdə ilk operanın açıldığı və ən vacib olan, müsəlman dünyasında ilk demokratik respublikanın yaranmasına görə tanınan ölkədənəm. Azərbaycan həm də 1918-ci ildə qadınlara seçmək və seçilmək hüququnu verən ilk ölkələrdən biri olaraq tarixə düşmüşdür. Qızların təhsilinə gəldikdə isə, müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi azərbaycanlı xeyriyyəçi Zeynalabdin Tağıyev tərəfindən 1901-ci ildə mənim doğulduğum Bakı şəhərində yaradılmışdır".

Hər insanın ona bəxş edilmiş həyatı əslində necə yaşamalı olmasının nümunəsidir. Birinci vitse-prezidentin fəaliyyətini izlədikcə, gördüyü işlərin məzmununu nəzərdən keçirdikcə, fikirləri ilə tanış olduqca, əslində ömrün mənasının nədən ibarət olduğunu dərk edirsən. Fərq ondadır ki, bu ali həqiqətləri Mehriban xanım əməlləri, unikal addımları ilə də anladır. Xüsusilə qadınlarımıza ünvanlayır ki, bizim həyatımız doğmalarımızla bağlı məsuliyyətimizdən başqa, həm də ictimai borcumuzla bağlıdır. Baxır ki, bu məsuliyyəti kim necə dərk edir. İnsanın cəmiyyətdəki statusunu, ictimai mövqeyini müəyyənləşdirən də elə budur. Əslində tarixdə qalmaq şansını da bu borcun ləyaqətlə yerinə yetirilməsi təmin edir. Dünyanı rifahla yaşadan, gələcəyə sonsuz ümid, inam yaradan məhz belə qadın şəxsiyyətlərdir!

## Gələcək qarşısında məsuliyyət

Bu gün dövlət rəhbərinin həyata keçirdiyi siyasətdə humanizm prinsipləri öndə tutulur. Vətəndaş amilinin aliliyi təmin olunur. İnsana dəyər verilir, nəcib zümrənin - qadınlarımızın problemləri həllini tapır, bir sözlə, dövlət vətəndaşının rifahı üçün çalışır. Beynəlxalq aləm Azərbaycanın yaratdığı üstün dəyərləri görür və qiymətləndirir. 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər milli birliyimizi daha da möhkəmləndirir. Bu birliyin əldə olunmasında xanımlarımızın, analarımızın, ziyalı qadınlarımızın fədakarlığı, vətən sevgisi, sarsılmaz iradəsi, ən yaxın silahdaş kimi igid oğullarımızın yanında olması böyük rol oynadı. Ağır sınaq günlərimizdə xeyirxahlıq, şəfqət, başqalarına təmənnasız kömək, ehtiyacı olana əl uzatmaq kimi dəyərlərimizlə əslində nə qədər böyük xalq olduğumuzu hamı dərk etdi. Bu dəyərləri yaşatmağı, onların ətrafında daha da sıx birləşməyi Azərbaycanı sevən hər kəs özünə borc bildi.

Xalq olaraq indi biz böyük bir gələcək qarşısındayıq. Təbii ki, Azərbaycan cəmiyyətindəki yeniliklərin mütərəqqi xarakteri qadınların yaşam tərzinə, məqsədlərinə, ümumilikdə prinsiplərinə böyük təsir göstərir. Cəmiyyətdə nüfuza, ciddi mövqeyə malik olan xanımlarımız dövlətin hərtərəfli inkişafı və tərəqqisi prosesinə öz töhfələrini verirlər. Azərbaycan qadınının həm ailədə, həm işdə, həm də cəmiyyətdəki layiqli mövqeyi onun uğurlu sabahına, xalqın firavanlığına ən ciddi təminatlardan biridir. Respublikada bərqərar olan demokratik mühit ölkə qadınlarının zəngin potensialının gerçəkləşdirilməsi üçün əlverişli zəmin yaradır. Dövlətin qadınlarla bağlı həyata keçirdiyi siyasət hər cür ayri-seçkiliyi aradan qaldıraraq, onların bərabər hüquqlarını və bərabər imkanlarını təmin edir. Əminliklə demək olar ki, bu siyasət daimi və dönməz səciyyə daşımaqla, bütövlükdə qadınların cəmiyyətdə layiqli mövqeyini hər zaman qoruyub saxlamağa imkan verəcəkdir.

Azərbaycan qadınının qazandığı nailiyyətlər bu gün qadın fəallığı ənənələrini yaşadır, məsuliyyəti artırır, gələcək nəsillər üçün davamlı inkişafa yol açır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# 8 Mart Beynəlxalq Qadınlar Günüdür

Dünya olduğu kimi

## Dünyanı dəyişən qadınlar

**Adətən qadınlara ev, məişət qayğılarını yerinə yetirən, uşaqların qulluğunda durub tərbiyəsi ilə məşğul olan bir insan kimi yanaşılır. Elə düşünülür ki, elmi, mədəni, yaradıcı fəaliyyətlər, yeni ixtiralar yalnız kişilərə xas ola bilər. Halbuki tarixdə elə faydalı kəşflər var ki, onlara məhz qadınlar imza atıb. O kəşflər ki dünyanın gərdişini dəyişib, insanların yaşam tərzini asanlaşdırıb. Kompüter proqramlarından qabyuyan maşına qədər gündəlik istifadə etdiyimiz əşyaların və elmi ixtiraların müəllifləri olan ixtiraçı qadınlarla tanış olun.**













**Qreys HOPPER:** ABŞ Donanmasının admiralı Qreys Hopper İkinci Dünya müharibəsindən sonra Harvard Universitetində apardığı araşdırmalar nəticəsində ilk böyük ölçülü kompüter olan "IBM-Harvard Mark 1" üzərində işləmək tapşırığı alır. Az keçmədən onun adı kompüter proqramlaşdırmasında ön sırada çəkilməyə başlanır. 1952-ci ildə o, söz halında olan təlimatları kompüterlərin oxuya biləcəyi kod halına salaraq ilk kompilyatoru yaradır. Bu kəşf proqramlaşdırmanı sürətli etməklə yanaşı, onların işləkliyinə müsbət təsir edir və İT sahəsində inqilab hesab olunur.

Hopper həmçinin alətinin içindən güvəni təmizlədikdən sonra işlətdiyi "cücüdən təmizləmə" (de-bugging) ifadəsini məşhurlaşdırıb. Onu "kompüterin anası" da adlandırırlar.

"Amazing Grace" (valehedici Qreys) donanmada xidmət edən ən yaşlı zabit kimi 79 yaşında təqaüdə çıxana qədər kompüterlərlə işləyib.

**Hedi LAMER:** II Dünya müharibəsi zamanı gizli rabitə sistemində inqilabi yeniliklər edib. Onun ilk dəfə olaraq tətbiq etdiyi üsul kodların düşmən kəşfiyyatı tərəfindən sındırılmasının qarşısını alıb.

**Ellen OŞOA:** İxtisasca astronavt olan Ellen Oşoa robot texnologiyasını təkmilləşdirən ilk şəxslərdəndir. O, robot texnologiyasını kəşf etdiyi optik analiz sistemləri ilə inkişaf etdirib.

**Olqa D GONZALEZ-SANABRİA:** Əslən Puerto-Rikodan olan bu xanım Beynəlxalq Kosmik Stansiyanı enerji ilə təmin edən uzun müddətli nikel-hidrogen batareyasını kəşf edib. O, bu texnologiyanı 1980-ci illərdə yaradıb. Hazırda NASA-nın Glenn Tədqiqat Mərkəzinin mühəndislik üzrə müdiridir.

**Stefani KVUOLEK:** Bu kimyaçı 1965-ci ildə güllə keçirməyən jilet və bədən zirehi üçün istifadə olunan yüngül fibranı ixtira edib. Onun kəşfindən sonra dəmirdən beş dəfə güclü olan bu material milyonlarla həyatı xilas edib və hər gün minlərlə insan tərəfindən işlədilir. Materialdan rezin əlcəklər, mobil telefonlar, təyyarələr və asma körpülərin hazırlanmasında istifadə olunur.

**Sara METER:** Bu qadın sualtı qayıqlar üçün periskop ixtira edib. 1845-ci ildə patentləşdirilən bu cihazın köməyi ilə müşahidə edilən obyektlər arasındakı məsafə təyin olunur.

**Şirley Ann CEKSON:** O, Massaçusetts Texnologiya İnstitutunda fəlsəfə doktoru dərəcəsini qazanan və yüksək səviyyəli tədqiqat universitetinə rəhbərlik edən ilk Afrika-Amerika əsilli qadındır. 1970-ci illərdə apardığı araşdırma zəng edənin kimliyinin müəyyənləşdirilməsinə və zəng gözləmənin yaranmasına səbəb olub. Onun telekommunikasiya üzrə nailiyyətləri portativ faks, fiber optik kabellər və günəş batareyalarının ixtirasına yol açıb.

**Meri ANDERSON:** Bu gün avtomobillərin ön şüşəsini yağış, qar və çirkdən təmizləyən şüşə silən fırçanın da ideya müəllifi qadın olub. Meri Anderson adlı xanım ilk dəfə maşınlar üçün bu cür qurğu düşünüb.

1903-cü ilə qədər sürücülər yağış və qar yağanda hər küçənin başında dayanıb şüşələrini silmək məcburiyyətində idilər. Meri Anderson məhz həmin il rezin ülgücün rəsmini cızır və maşınlar üçün şüşəsilən icad edir. Lakin "sürücülərin diqqətini dağıdır" bəhanəsi ilə 10 il kəşfi üçün patent ala bilmir. Şüşəsilənlər maşınlar üçün standart hesab olunduqdan sonra belə Anderson ixtirasından pul qazanmayıb.

Həmin silginin elektrikli variantını da 1917-ci ildə yenə bir qadın ixtira edib.

**Josefina KOKREYN:** Tez-tez şənliklər təşkil edən Kokreyn çini qablarının qulluqçular tərəfindən sındırılmasından bezir və qabyuyan maşın hazırlayır. Onun mis qazan içindəki təkəri fırladan mühərrikli maşını yüksək təzyiqli su ilə işləyən ilk avtomatik qabyuyan olub. Həmin dövrdə evlərə isti su gəlməsə də, Kokreyn icadını restoranlara və hotellərə sata bilir. Kokreynin əyyaş əri ölümündən sonra ona böyük məbləğli borclar qoyur. Bu, Josefinanı 1886-cı ildə kəşfini patentləşdirməyə sövq edir və o, öz zavodunu açır.

**Patrisiya BAS:** Avropada yaşayan zənci qadın Patrisiyanın kəşfi tibb aləmində, xüsusən də cərrahllıqda əsl inqilab idi. Bu xanım ilk dəfə olaraq katarakta əməliyyatlarında yeni metoddan - lazer üsulundan istifadə edib və 1988-ci ildə patent alan ilk afro-amerikan qadın həkim olub.

**Ann TSUKAMOTO:** Kök hüceyrəsi izolyasiyasının patentini 1991-ci ildə alıb. Həmin ildən bu yana Tsukamotonun işi xərçəng xəstələrinin qan sistemini anlamaqda böyük rol oynayır və həllinə də yol aça bilər. O, hazırda kök hüceyrəsinin böyüməsi üzrə başqa bir tədqiqat aparır və yeddidən çox ixtiranın ortaq patentçisidir.

**Tabita Babbitt:** O, iki kişinin mişarı irəli-geri çəkməklə necə ağac kəsməyinə uzun müddət tamaşa edir. Bu zaman hər iki kişinin üzərinə eyni dərəcədə yük düşdüyünü görür. Taxta yalnızca mişar irəli çəkildikdə kəsilirdi, yəni mişarı geri çəkdikdə taxta ilə heç nə baş vermirdi. Babbitt belə düşünür ki, bu mişarlar boşa enerji sərfidir. Beləliklə, 1813-cü ildə yuvarlaq mişar, dairəvi mişar icad edir. Artıq nəsə kəsəndə ikinci adama ehtiyac qalmırdı. Bu icad sonradan meşə sənayesində istifadə olunsa da, Babbit onun patentini almır.

**Nadejda KOJİNA:** 1873-cü ildə rusiyalı Nadejda Kojina Vyanada keçirilən ümumdünya sərgisində ət konservlərinin hazırlanma üsulunu təqdim edir və buna görə medalla təltif edilir.

**Marion DONOVAN:** ABŞ-dan olan bu xanım illərdir bütün uşaqlı ailələrdə istifadə olunan, anaların "xilası" sayılan uşaq bezlərini kəşf edib. Donovan 1949-cu ildə uşaqları bişməcə olmağa qoymayan "Boaters" adlı bezi kəşf edir. Sonradan icadını daha da təkmilləşdirərək 1961-ci ildə birdəfəlik uşaq bezləri olan "Pampers"I yaradır.

**Mariya TELKES:** Macarıstanda doğulmuş biofizik Telkes evlərdə günəş enerjisi ilə isitmə sisteminin ixtiraçısıdır. 1925-ci ildə Amerika vətəndaşlığı alan Telkes Vestinqhaus elektrik şirkətində mühəndis kimi işləyib. Fizika sahəsində bir çox uğurlara imza atan Mariya bu uğurlara görə ölkəsi Macarıstanın sərhədlərini aşa bilib.

**Elis H. PARKER:** Mərkəzi isitmə sisteminin ixtiraçısı Parker 1919-cu ildə Amerikadan patent almaq üçün müraciət edib. Bu sistem sayəsində binalara istilik verilib.

**Marta KOSTON:** Heç bilirdinizmi bu gün təntənəli günlərdə, bayramlarda havaya atdığımız, müxtəlif rənglərlə gözəl görüntü yaradan fişəngləri qadın icad edib? Bəli, bunun da ixtiraçısı qadındır - Marta Koston.

## Qan bahasına yaranan bayram

**Çoxları elə bilir ki, 8 Mart Beynəlxalq Qadınlar Günü xanımlara çiçək və hədiyyə almaq üçün təsis edilib. Ancaq tarixə nəzər salsaq, bu günün kökündə qadının cəmiyyətdəki rolu və hüquqları uğrunda mübarizəsinin dayandığı məlum olur.**




1857-ci il martın 8-də Nyu York şəhərində tikiş və ayaqqabı fabrikində çalışan qadın işçilər nümayişə çıxırlar. Onlar 10 saatlıq iş günü, işıqlı və rahat iş yeri, kişilərlə eyni maaş tələb edirlər. O zaman qadınlar sutka ərzində 16 saat işləyir, bunun müqabilində isə qəpik-quruş alırdılar. Ancaq polis nümayişi dağıtmaq üçün işçilərə hücum edir və fabrikin qapılarını bağlayır. İçəridə yanğın başlayır. İşçilər fabrikin qarşısında qurulan barrikadaları keçib qaça bilmirlər. Nəticədə çoxu qadın olmaqla 129 işçi yanaraq həyatını itirir. Beləliklə, qadınların haqqı uğrunda apardığı mübarizəyə qanla yekun vurulur.

Bu hadisədən 51 il sonra, 1908-ci il martın 8-də Nyu York Sosial-Demokrat Qadın Təşkilatının çağırışı ilə 15 min qadın daha az iş saatı, kişilərlə bərabər əməkhaqqı və səsvermə hüququ tələbi ilə nümayiş keçirir. Nümayişdə ilk dəfə olaraq analıq məzuniyyəti icazəsi də tələb olunur. Həmin qadınların şüarı "Çörək və gül" idi. Çörək həyat eşqini, qarın toxluğunu, gül isə daha yüksək rifahlı həyat tərzini ifadə edirdi...

Bir il sonra, 1909-cu il fevralın 28-də Nyu Yorkda ilk Qadınlar Günü mərasimi baş tutur. Bu, Amerika Sosialist Partiyası tərəfindən qadın işçilərin 1908-ci ilki tətilinin xatırlanması münasibətilə təşkil olunmuşdu.

1910-cu ildə Danimarkanın Kopenhagen şəhərində keçirilən 2-ci Beynəlxalq Sosializm Konfransında Almaniya Sosial Demokrat Partiyası liderlərindən olan Klara Setkin tikiş fabrikinin yanğını zamanı ölən qadın işçilərin xatirəsinə ehtiram olaraq 8 Martın "Dünya Qadınlar Günü" kimi qeyd olunmasını təklif edir və bu, qəbul olunur.

Qadınlar günü ilk dəfə Avstriya, Danimarka, Almaniya və İsveçrədə 1911-ci il martın 19-da qeyd edilir. O zaman milyondan artıq kişi və qadın nümayişlərə qoşulur.

1914-cü il martın 8-də Rusiyada Beynəlxalq Qadınlar Günü baş tutur. Həmin günün mərasimi qadınların 1918-ci ilə kimi qazana bilmədikləri seçki hüququna həsr olunur. Eyni tarixdə Londonda da qadınların seçki hüququna dəstək məqsədilə Trafalqar meydanına doğru yürüşü baş tutur.

1917-ci il martın 8-də Sankt-Peterburqda Qadınlar Gününün qeyd olunması ilə bağlı nümayişlər Fevral inqilabının əsasını qoyur. Həmin gün qadınlar "Çörək və sülh" şüarı ilə küçələrə çıxıb, I Dünya müharibəsinin, Rusiyadakı ərzaq qıtlığının və çarizmin bitməsini tələb edirlər. Bundan 4 gün sonra çar II Nikolay devrilir. Müvəqqəti hökumət qadınlara səsvermə hüququ verir.

Oktyabr inqilabından sonra bolşevik Aleksandra Kollontay və Vladimir Lenin 8 Martı SSRİ-də rəsmi bayram elan edirlər. SSRİ Ali Sovetinin Rəyasət Heyətinin 8 may 1965-ci il fərmanıyla Beynəlxalq Qadınlar Günü qeyri-iş günü elan olunur.

1975-ci il dünya qadınları üçün xüsusi əhəmiyyət daşıyır. Həmin ilin "Beynəlxalq qadın ili" elan edilməsindən sonra Birləşmiş Millətlər Təşkilatında 8 Mart ilk dəfə Beynəlxalq Qadınlar Günü olaraq keçirilir. İki il sonra 1977-ci ildə isə BMT-nin Ümumi Qurultayında 8 Mart qadın hüquqları və beynəlxalq sülh günü olaraq qəbul edilir.

8 Mart Beynəlxalq Qadınlar Günü hər il Azərbaycanda da dövlət səviyyəsində qeyd olunur. Ölkə Prezidenti bayram münasibətilə Azərbaycan qadınlarını təbrik edir, öz peşələrində uğur qazanan xanımları fəxri ad və mükafatlarla dəyərləndirir.

*Xəyalə MURADLI,*
*"Azərbaycan"*

Sağlıq olsun

## X, yoxsa Y: hansı uzunömürlüdür?

Həkim məsləhəti

**Qadınların kişilərdən daha uzunömürlü olması araşdırmalarla təsdiqini tapmış gerçəklikdir. Ümumdünya Səhiyyə Təşkilatının statistikasına görə, hazırda orta insan ömrü 71 yaş təşkil edir (müvafiq olaraq 73 və 68 il). Ən yoxsul Afrika dövlətlərindən tutmuş ən zəngin Avropa şəhərlərinə kimi bütün dünya ölkələrində qadınların orta ömrü kişilərdən daha yüksəkdir.**



2010-cu ildə Amerikada aparılan bir araşdırma 100 yaşını aşanların böyük çoxluğunu qadınların təşkil etdiyini ortaya çıxarıb. Belə ki, ABŞ-da 100 yaşını aşan 53 min 364 şəxsdən 9 min 162-si kişi, 44 min 202-si isə qadın olub.

İtaliyada 2019-cu il yanvarın 1-nə olan vəziyyətə görə, yaşı 100-ü keçən 14456 insanın 84 faizi qadın olub. 2009-2019-cu illər ərzində isə yaşı 110-a çatan və 110-dan yuxarı olan 125 nəfərin 93 faizini qadın təşkil edib.

Azərbaycan Milli Elmlər Akademiyası Fiziologiya İnstitutunun verdiyi məlumata görə, ötən il ölkəmizdə 100 və yuxarı yaşda olan 838 nəfərin cəmi 24-ü kişi, 814 nəfəri isə qadın olub.

Beləliklə uzunömürlülüklə bağlı bütün dünya statistikalarına qadınlar başçılıq edir.

Bəs qadınlar nə üçün kişilərdən çox yaşayırlar? Onlara daha çox həyat bəxş edən sirli səbəb nədir?

Bu mövzudakı ilk mülahizələrdən biri kişilərin ağır fiziki iş şəraitində çalışmaları ilə bağlı idi. Lakin qadınların da demək olar ki, kişilərlə eyni cür işlədikləri bir zamanda bu rəqəmlərin bərabərləşməsi baş verməli idi. Yenə də qadınların kişilərdən bir neçə il çox yaşadıqları bəlli oldu.

Elm adamları isə yaşlanmada sosial faktorlar və yaşam tərzi ilə yanaşı, burada genetik quruluşun oynadığı rolu da düşünürlər.

Alimlərin qənaətinə görə, qadınların kişilərlə müqayisədə daha uzun ömür sürməsi onların həyata daha "sağlam" yanaşması deyil, orqanizmlərində qocalmanı ləngidən əlavə gen surətinin olması ilə əlaqəlidir. Bunu "Aging Cell" jurnalında dərc olunan araşdırmanın nəticələri də təsdiqləyir. Qeyd olunur ki, antropoloqlar bütün dünya ölkələrində qadınların orta ömrünün kişilərdən daha yüksək olması tendensiyasını ibtidai icma quruluşunda qalmış xalqlar arasında da müşahidə olunduğunu müəyyən edib. Ənənəvi olaraq, bu, kişilərin riskə, kökəlməyə, qeyri-sağlam həyat tərzinə, o cümlədən alkoqol, tütün və narkotik vasitələrə meyilli olması ilə əlaqələndirilirdi.

Ancaq Kaliforniya Universitetinin alimi Dena Dubal və onun həmkarları kişi ilə qadın ömrü arasındakı bu fərqin təkcə sosial deyil, eyni zamanda genetik aspektlərinin olduğunu ortaya çıxarıblar.

Tədqiqatçılar uzun müddət DNT-ləri modifikasiya olunmuş dörd qeyri-adi siçan qrupu üzərində müşahidələr aparıb. Alimlər beyin və digər orqanların işində, həmçinin cinsi xromosomların funksiyası və strukturu baxımından kişi və qadınlar arasında bir çox fərqin olduğundan şübhələnib.

Məsələ ondadır ki, Y - kişi xoromosomu, demək olar ki, həyati əhəmiyyətli genlərdən məhrumdur. Bir neçə kritik əhəmiyyətli (məsələn, rüşeymin inkişaf proqramının işə salınması üçün) DNT sahəsini köçürdükdən sonra onları genomdan kənarlaşdırmaq olar.

Qadın - X xromosomu isə həm zəif, həm də güclü cins üçün həyati əhəmiyyətlidir və onların genində yaranan pozuntu adətən fatal sonluqla (ölümlə) nəticələnir. Dubal və onun komandası belə bir nəticəyə gəlib ki, qadınların kişilərlə müqayisədə uzunömürlülüyü məhz X xromosomu ilə əlaqəli ola bilər.

### Bilirik?

- Qadınlar ünsiyyət qurarkən gündə 20 min, kişilər isə 7 min söz, mimika və jestdən istifadə edirlər;
- Qadınların eşitmə və iyləmə duyğuları daha güclüdür. Bunun əksinə kişilər işığa qarşı daha həssasdır. Kişi gözləri daha yaxşı görmə qabiliyyətinə malikdir;
- Hər dörd AİDS xəstəsindən yalnız biri qadındır. Bunun səbəbi qadınların X xromosomundan iki dənə daşımasıdır. Çünki bir sağlam, bir xəstə xromosoma yenə sahib olsalar belə, sağlam gen xəstə genə qalib gəlir və qadınlar xəstə yox, sadəcə daşıyıcı olurlar;
- Kişilərdə beyinin çəkisi 14 faiz artıqdır. Digər tərəfdən qadınlarda beyin yarımkürələrini birləşdirən sinirlər ikiqat sıx yerləşmişdir. Buna görə də qadınlarda düşünmə prosesi daha tez və cəld baş verir;
- Qadınların orqanizminin maye ilə təminatı 50-60 faizdirsə, kişilərdə 60-70 faiz olur; Kişilərin bədənində 4,5 litr qan dövr edir, qadınlarda isə cəmi 3,6 litr;
- İnsult və infarkt kimi xəstəliklər əksər halda kişilərin həyatında baş verir. Çünki kişilərin qan tərkibi qadınlara nisbətən daha qatıdır. Laborator araşdırmalara əsasən kişilərin hər qan damlasında qadınlarla müqayisədə 1 milyondan çox qan hüceyrəsi var.

Yaşam

## İncə qəlblilər



**Qadınların ürəyinin kövrək və incə təbiəti elmi cəhətdən də sübut edilmişdir. Türkiyəli kardioloq Ahmet Karabulut bununla bağlı məlumat verib ki, ümumiyyətlə, həddindən artıq stres və kədərdən qaynaqlanan "qırılmış qəlb sindromu" qadınlarda daha çox müşahidə olunur.**

Qadınların ürəyinin damarları daha incə və büzüşməyə daha meyilli olduğu üçün zədələnmiş ürəyin damarlarını müalicə etmək daha çətin olur. İnfarkt keçirmiş qadınlar üçün ölüm nisbəti də kişilərdən daha yüksəkdir. Həmçinin qadınların ürəkləri daha çox döyündüyü üçün ürək çırpınmasına meyllidirlər. Əgər ürəktutma zamanı kişilərdə sinə ağrısı ön plana çıxırsa, bu hal qadınlarda özünü nəfəs darlığı, halsızlıq, yorğunluq və şişkinlik kimi büruzə verir.

Şəfalı bitkilər

## Zəriflərə təbii ərməğan

**ABŞ-ın Massaçusets ştatının Tafts Universitetinin alimləri döş xərçəngi ilə mübarizədə daha bir metod tapıblar.**



Bu, şampinyon göbələkləridir. Əsasən marinadlarda, salatlarda, yeməklərdə istifadə olunan geniş yayılmış şampinyon göbələkləri sıx-sıx istifadə edildikdə döş vəzisində yarana biləcək bədxassəli şişlərin qarşısını alır. Həmçinin mövcud şişlərin böyüyüb yayılmasını əngəlləyir. Ona görə də həkimlər döş vəzisində şişdən əziyyət çəkən qadınlara gündə 100 qram göbələk yeməsini məsləhət görürlər. Məsələ burasındadır ki, şampinyon göbələklərdə dentrit aktivatorları var ki, bunlar viruslar qarşısında maneə çəkərək onların orqanizmdə yayılmasına imkan vermirlər. Bundan başqa, şampinyondan hazırlanmış qida mədəyə düşən kimi insanda ümumi immun sistemini artırır və antivirus funksiyasını yerinə yetirir.

Qidalanma

## Dondurma, şokolad, tort - xanımların şirniyyat sevgisi



**Qadınların şirniyyata olan həddindən çox istəklərinin səbəbi məlum olub. Kanadalı professorlara görə, zərif cinsin şirniyyat sevgisi genetik faktorlarla bağlıdır.**

Alimlərin fikrincə, qadınların genlərindən gələn bir hüceyrə dondurmanı, şokoladı, tortu və digər şirniyyatları onlara daha çox sevdirir. "Apetie" jurnalında yayımlanan nəticələr də bunu təsdiqləyir. Belə ki, 4 yaşları olan 150 uşaqdan hansı yeməkləri daha çox sevdikləri soruşulub. Qızlar daha çox şirniyyatları sevdiklərini deyiblər. Qadınların beynində yeməklərə verilən reaksiyaya nəzarət edən dopamin hormonu onların daha çox şirniyyatlara yönəlməsinə kömək edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*




● Mərasimlər




**Novruz bayramınadək xüsusi təntənə, mərasimlərlə qeyd olunan çərşənbələrdən üçüncüsü Yel çərşənbəsidir. Bu çərşənbəyə xalq arasında "Küləkli çərşənbə", "Külək oyadan çərşənbə", "Yelli çərşənbə", "Heydər çərşənbəsi" də deyilir.**

Əcdadlarımızın ilkin təsəvvürlərində Novruza qədərki dörd çərşənbənin hər birini təbiətin bir ünsürü ilə əlaqələndirərək müqəddəsləşdiriblər. "Su çərşənbəsi", "Od çərşənbəsi", "Yel çərşənbəsi" və "Torpaq çərşənbəsi" adlandırdıqları ilaxır çərşənbələri insanlar məhsul bolluğu yaratmağa, birlik və firavanlığa, sağlamlığa, halallığa, dostluğun, qardaşlığın sarsılmaz gücünə, mehribanlığa çağırış kimi qeyd ediblər. İnanıblar ki, bu dörd çərşənbənin hər birində təbiətin dörd ünsüründən biri qış yuxusundan oyanır, süstlükdən, ətalətdən qurtularaq canlanır. Xalq tərəfindən keçirilən böyük el şənliklərinin, mərasimlərin mahiyyətində də bu inam dayanır. Qədim inanclara görə, Novruz bayramına qədər dörd çərşənbə müddətində əvvəlcə su, sonra od, yel və nəhayət, torpaq oyanır. Beləliklə, bu çərşənbə "dirilmək", canlanmaq və təbiəti də canlandırmaq növbəsi yelin, küləyindir.

İnanca görə, bu çərşənbədə oyanan yel və külək Yer üzünü dolaşır. Oyanmış suyu, odu hərəkətə gətirir. Yel çərşənbəsində gün ərzində küləklər bir neçə dəfə dəyişir. Bu çərşənbədə əsən isti-soyuq küləklər yazın gəlişindən xəbər verir.

Yel çərşənbəsində yel özü də təzələnir. Bu düşüncə mifoloji təsəvvürlərdə belə əksini tapıb ki, qara nəhrdə yatmış dörd cür külək əvvəlcə Yer üzünə çıxıb özü təmizlənir, sonra hər biri fərqli libasda özünü göstərir. Küləyin libasları ilə xarakteri arasında da oxşarlığın olduğunu, burada rənglərin mifik mənaları xüsusilə önəm daşıdığını qeyd edən tədqiqatçılar bildiriblər ki, Azərbaycan mifologiyasına görə, Ağ yel - ağ libasda, Qara yel - qara libasda, Xəzri - göy libasda, Gilavar - qırmızı libasda xarakterizə edilir.

Azərbaycan şifahi xalq ədəbiyyatında Yel çərşənbəsi ilə bağlı çoxsaylı poeziya nümunəsi var. Onlardan birində xalqın küləyin gücünə inamı, ümidi belə ifadə olunub:

*Yel əsər, toz qoparar,*
*Ağacdan qoz qoparar.*
*Yellə gələn bəlanı,*
*Yel özü də aparar...*

Xalq arasında yel və yel çərşənbəsi ilə bağlı erkən dövrlərdən küləyin əhəmiyyətini əks etdirən bir sıra folklor nümunələri var.

*Yelli babam, yel babam,*
*Yelli babam, yel babam,*
*Telli babam, tel babam...*
*Elim, günüm batdı gəl,*
*Çərpələngim yatdı gəl,*
*Təknədə qaldı aşım,*
*Yatdı dəyirman daşım.*

*A yel baba, yel baba*
*Qurban sənə, gəl, baba.*
*Taxılımız yerdə qaldı,*
*Yaxamız əldə qaldı,*
*A yel baba, yel baba,*
*Qurban sənə, gəl, baba.*

Yelin Tanrı olması ilə əlaqədar şifahi xalq yaradıcılığında müxtəlif nəğmə, əfsanə, rəvayət, mif, inanc, məsəl yaranıb. Novruz şənliklərində icra olunan Yel baba mərasiminin də öz kökü etibarilə qədim əcdadlarımızın Yel tanrısına etiqadı ilə bağlıdır.

Tədqiqatçıların fikrincə, müqəddəs kitablarda da Yel fövqəladə varlıq hesab edilir. "İncil"də və "Zəbur"da Yel allahı vəsf olunur. "Tövrat"da isə dörd növ Yel ilahəsinin hər birinin özünəməxsus xüsusiyyətlərindən bəhs edilir. Yelin Yaradan tərəfindən göndərildiyi "Qurani-Kərim"də bildirilir.

Folklorşünas alim Azad Nəbiyev araşdırmalarında zərdüştilərin də küləyi müqəddəs saydıqlarını, onu Tanrı hesab etdiklərini qeyd edib. "Avesta"da deyilir: "Yelin gücü, qüdrətli Hörmüzün gücüdür... Yel Hörmüzdən güc alıb dünyaya ayaq açmışdır". Tədqiqatçı Məmməd Adilov isə Yelin "baba", "allah" hesab edilməsi tarixini qədim yunanlarla bağlayıb. Belə ki, yunan mifologiyasında tənha bir adada yaşayan Eol bütün küləklərin mənşəyi hesab edilir. O, dörd oğlunu mağarada saxlayır. Oğlanlarını növbə ilə dünyanı dolaşmağa göndərir. Bu səbəbdən Yer üzündə dörd cür külək əsir. Yunanların başqa bir mifik düşüncəsində isə Yel külək tanrısı sayılır.

Keçmişdə insanlar inanırdılar ki, Yel baba gəlməmiş xırmana buğda, dən götürməzlər. Sovurulmamış buğda götürənin oğlu ölər. Ulularımız deyiblər ki, "Yel əsdirəni söyməzlər", çünki onun arxasında Tanrı durur. İnanca görə, Yel çərşənbəsi gecəsi söyüd ağacının altına gedib niyyət edər və Yel babanı çağırarlar. Əgər Yel baba bu çağırışı eşidib əssə və söyüdün budaqlarını torpağa toxundursa, diləyin yerinə yetər.

Yel həm də xeyirxahlıq simvoludur. Azərbaycan mifik təfəkküründə yol göstərən, bələdçi kimi də təsvir olunub. Yel baba qalın meşələrdə azıb mənzilini tapmaqda çətinlik çəkən xeyirxah insanların qarşısına çıxır, onlara bir yumaq verir və yumağı yerə atıb diyirlətməyi tələb edir. Yel babanın üfürməsi ilə yumaq açılır və yolunu azmışları mənzil başına çatdırır.

Bayram səviyyəsində qeyd edilən digər çərşənbələr kimi Yel çərşənbəsində qadınlar, qızlar xüsusi hazırlıqlar görürlər. Ev-eşik, həyət-baca süpürülüb təmizlənir, yorğan-döşək, xalça-palaz, geyimlər həyətə çıxarılır, barıların, məhəccərlərin üstünə sərilərək çırpılır. İnama görə, Yel çərşənbəsində yorğan-döşək, xalça-palaz, geyimlər havaya verilərsə, təmizlənər, paklanar.

Şər qarışanda hər həyətdə, hər məhəllədə tonqallar qalanır. Tonqal başına toplaşanlar azar-bezardan, bədbəxtlik və fəlakətlərdən xilas olmaq, günahlardan qurtulmaq niyyəti ilə üç dəfə tonqalın üstündən atlanırlar.

Yel çərşənbəsində evlərdə südlü plov bişirilir. Süfrəyə daha çox quru meyvə və dənli bitkilərdən hazırlanmış çərəzlər, şirniyyat qoyulur. Həmin gün bir qarış böyümüş səməninin ortasına qırmızı lent bağlanır.

Adətən, çərşənbə bayramlarında böyüklər kiçiklərə "bu gün yalnız xoş sözlər danışın, alqış eləyin" deyə xəbərdarlıq edirlər. Çünki inanclara görə, Tanrı çərşənbə axşamları ancaq xoş sözlər eşitməlidir. Ona görə də Yel çərşənbəsində yalnız ürəkaçan sözlər söylənilməli, gözəl diləklər, alqışlar dilə gəlməlidir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

### Üçüncü çərşənbə

Açıldı hava,
Qurtardı dava.
Getdi qış,
Gəldi yaz.
Doğdu Günəş,
Bitdi ayaz.
Çölə çıxdı
Qoyun-quzu.
Güldü yenə
Göyün üzü,
Güldü yenə
Yerin üzü.
Düzlər yenə çiçək açdı,
Günəş qovdu, soyuq qaçdı.
Soyuq qarla isti Günəş
Yazda qışın davasıdır.
Görən deyir:
- Üzə dəyən
Meyxoş meh də
Gözəl Yazın havasıdır!

***Əhməd CAVAD***





*Foto İlham BABAYEVİNDİR*

## Novruzun topları

**Keçmişdə hər bir hakimin qüdrətindən asılı olaraq onun yanında olan münəccimlər müəyyən hesablamalarla köhnə ilin qurtarmasını, yeni ilin başlanmasını, yəni ilin təhvilini xəbər verirdilər.**

Bu münasibətlə toplardan yaylım atəşi açardılar. Nağaralar gumbur-gumbur gurlayar, şeypur, təbil səsləri yüksələrək yeni ilin gəldiyi xəbərini yayardılar. Atəşfəşanlıq başlanardı. Buna görə də "Novruzun topu atılan vaxtda il təhvil oldu" deyərdilər. Yusif Vəzir Çəmənzəminli "İki od arasında" romanında yazır: "Qazi il təhvilə beş dəqiqə qaldığını elan etdi. Hamı özünü şad göstərməyə çalışdı. Xalq adətincə yeni il hansı bir əhvali-ruhiyyə ilə qarşılansaydı, guya eyni əhvali-ruhiyyə ilin sonuna qədər davam edərdi. Odur ki, üzlər gülümsəyir, qəmi-dərdi unutmağa çalışırdılar, gözlər süfrəyə, bolluğa və gül-çiçəyə dikilirdi. Xan üçün incə oymalı səndəl üstündə ceyran dərisində yazılmış qədim bir Quran qoyulmuşdu, xan və ətrafındakılar yeni ili Quran ayəsinə baxaraq qarşılamaq istəyirdilər. Bir-iki dəqiqə davam edən dərin sükutu top atəşləri pozdu: il dəyişilirdi..."

1637-ci ildə Şamaxıda olmuş alman səyyahı Adam Oleari də yeni ilin təhvili mərasimini - Novruz topunun atılmasını təsvir etmişdir.

● Adətlərimiz, inanclarımız

## Baharın ilk müjdəçiləri

**Uzun illər boyu xalqımıza, digər türk xalqlarına yaz fəslinin, Novruzun yaxınlaşmasını əsasən quşlar xəbər vermiş, onların gəlişi baharın gəlişi kimi düşünülmüşdür.**



Müşahidələrə görə, yazın ilk əlaməti öncə hacıleyləklərin qayıtmasından bilinir. Bu quşlar əsasən Kiçik çillənin sonu - Çilləbeçənin (Boz ayın) əvvəllərində gəlir. Bundan sonra havalar bir neçə günlüyə soyuyur, küləklər əsir. Buna "Leylək boranı" deyilir. Xalq arasında söyləyirlər ki, gərək leylək yumurtasının üstünə qar yağa. Ümumən, leyləklər erkən qayıtdıqlarından öz köhnə yuvalarına dönür, Novruzu yuvalarında keçirirlər. Bu vaxtlar ağacları, damları quş yuvaları bəzəyir. Evlərin taxtapuşunda, eyvanında baharın ilk müjdəçiləri sayılan şanapipiyin, qaranquşun, alacəhrənin cəh-cəhi, civiltisi, nəğməsi eşidilir.

Baharın soraqçısı hacıleylək inamı xalq arasında maraqlı əhvalatla mənalandırılıb. Yazqabağı ilk dəfə hacıleyləyi görən uşaqlar evə qaçıb yaşlı insanlardan muştuluq alardılar. Deyərdilər ki, hacıleyləklər yazın muştuluqçusudur. Baba-nənələri muştuluqlayan kimi soruşardılar: "De görək, hacıleyləyin dimdiyində nə var idi?" Deyərdilər ki, sünbül. Bu bolluq, bərəkət rəmzi deməkdir.

## Yaz bərəkəti qışdan alar

**Ulu babalarımız müəyyənləşdirmişlər ki, qış fəslində gecələr ayaz, gündüzlər dumanlı keçərsə, bu, qışın sərt, şaxtalı olacağına işarədir. Yəni bu müddətdə havalar soyuq keçər, torpaq da ayazıyar, məhsul az olar.**

Qışda gündüzlər ayaz, gecələr dumanlı olanda isə, əksinə, havalar nisbətən yumşaq keçər, torpaq daha isti olar, bitkilər tez və yaxşı inkişaf edər, məhsul bol olar. Bu sınama özünü xalq ədəbiyyatı örnəklərində də saxlamışdır.

Gecə ayaz, gündüz duman
ilin kürüdür-kürü.
Gündüz ayaz, gecə duman
ilin gülüdür-gülü.

Qış dumanı həm də havanın dəyişəcəyini göstərən əlamətlərdən biri hesab olunur. "Qış dumanı qar gətirər, yaz dumanı bar", deyirlər.

Babalar bunu da söyləyiblər ki, qışda qar çox yağarsa, məhsul bol olar. Belə yağıntıya bərəkət gətirən, bolluq gətirən qar deyərlər. Elə ona görə də "Yaz bərəkəti qışdan alar" - söyləyib ulularımız.



İlin qış fəslində torpağın qalın qar örtüyü ilə bürünməsi çox xeyirlidir. Sanki torpaq dincəlib yorğunluğunu alır, rahatlanır. Torpağa loğmandır bu qar, deyərlər. Bununla əlaqədar əkinçilər təcrübədən çıxarmışlar ki, qışda dincələn, yazda yola çıxan torpaq payızda barı-bəhəri ilə qayıdar.

Qışın qarı torpağın bərəkətidir. Qışda torpağın "ağ köynək" geyməsi, əkinlərin şaxtadan qorunması, yazda bol su ilə təmin edilməsi deməkdir. Bu faydalı cəhətlər "Qar olmasa, bar olmaz", "Qışın qarı, yazın varı", "Qar ili, var ili" kimi el sözlərində də öz əksini tapmışdır.

***Hazırladı: İ.ƏLİYEVA***

# Beynəlxalq aləm

## Bayden İrana qarşı sanksiyaların müddətini uzatdı



ABŞ Prezidenti Co Bayden Vaşinqtonun 1995-ci ildə İrana qarşı tətbiq etdiyi sanksiyaların müddətini uzatmışdır. Bu barədə Ağ evin Mətbuat xidməti məlumat vermişdir.

Məlumatda deyilir ki, İranın hərəkətləri və siyasəti ABŞ-ın milli təhlükəsizliyi, xarici siyasəti və iqtisadiyyatına təhlükə yaratmaqda davam edir. Bu təhdidlərə “raketlərin və digər asimmetrik və adi silahların istehsalı və yayılması”, “regional təcavüz” və terrorçu qruplara dəstək, həmçinin “İslam İnqilab Qvardiyasının zərərli fəaliyyəti” aid edilir.

Sanksiyalar hər il uzadılsa da, müşahidəçilər belə bir məqama diqqət yetirirlər ki, bu, ABŞ-ın İranla 2015-ci il tarixli nüvə sazişinə - Birgə Hərtərəfli Fəaliyyət Planına (BHFP) qayıtması ehtimalı fonunda baş verir. Vaşinqton eks-prezident Donald Trampın təşəbbüsü ilə 2018-ci ildə müqavilədən çıxmışdır. Buna cavab olaraq İran BHFP üzrə öhdəliklərindən tədricən çıxmağa və zənginləşdirilmiş uran istehsalını artırmağa başlamışdır.

ABŞ İranın sazişin şərtlərinə tamamilə riayət etməsində israrlıdır və bu halda sanksiya rejimini yumşaltmağa hazır olduğunu bildirir. İran isə, əksinə, əvvəlcə sanksiyaların qaldırılmasını tələb edir və bundan sonra sazişin şərtlərinə qayıdacağını bəyan edir.

## ÜST pandemiyanın bitəcəyi tarixi açıqladı



Koronavirus pandemiyası 2021-ci il boyunca davam edəcək, onun bitməsini 2022-ci ilin əvvəllərində gözləmək olar. Bu tarixi Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa regional ofisinin rəhbəri Hans Kluge Almaniyanın “Welt” qəzetinə müsahibədə açıqlamışdır.

Klugenin fikrincə, 2021-ci il ərzində pandemiya geri çəkilməyəcək, amma vəziyyət proqnozlaşdırıla bilən və idarəedilən olacaq. ÜST-ün nümayəndəsi 2020-ci ili “elmi və siyasi qaranlıq” kimi səciyyələndirmişdir. Kluge qeyd etmişdir ki, bir ildən sonra bəşəriyyət koronavirus haqqında daha çox şey bilir, onunla mübarizə aparmaq üçün vasitələr, o cümlədən diaqnostika və vaksinlər meydana çıxmışdır.

Bununla belə, Kluge xəbərdarlıq etmişdir ki, pandemiya bir ildən sonra başa çatsa, koronavirus tamamilə yox olmayacaq.

## Rusiyada uşaq bağçasında kütləvi zəhərlənmə olub




Rusiyanın Şaxtyorsk şəhərində (Saxalin vilayəti) uşaq bağçalarının birində bağırsaq infeksiyasına 9 yoluxma halı aşkarlanmışdır. Bu barədə regional hökumətin mətbuat xidməti məlumat vermişdir.

Məktəbəqədər təhsil müəssisəsində tərbiyə alan 7 uşaq xəstəxanaya yerləşdirilmişdir, qalanları ambulator nəzarət altındadır. Tibbi yardım üçün müraciət etmiş bütün uşaqlar dərhal müayinə olunmuş və müalicə təyin edilmişdir. İndi uşaqların vəziyyətində müsbət dinamika müşahidə edilir. Onların həyatına heç bir təhlükə yoxdur.

Bir neçə gün əvvəl xəbər verilmişdi ki, son iki həftə ərzində Krasnoyarskda 25 məktəbdə 7-14 yaşlı 91 məktəbli zəhərlənmişdir. Bütün hallarda bağırsaq pozğunluğu diaqnozu qoyulmuşdu.

## “Perseverance” Marsın səthində “addımlamağa” başladı



“Perseverance” aparatı Marsın səthinə endikdən sonra ilk dəfə bir neçə metr “yerimişdir”. Bu barədə ABŞ Milli Aeronavtika və Kosmik Fəzanın Tədqiqi İdarəsi (NASA) məlumat vermişdir.

Qeyd olunur ki, cihaz martın 4-də 6,5 metrlik məsafə qət etmişdir. Mütəxəssislər aparatın hərəkət etməsi üçün hazırlıq işlərini davam etdirirlər. Bu işlər başa çatdıqdan sonra “Perseverance” elm adamlarının tapşırıqlarını yerinə yetirməyə başlayacaq, mütəmadi olaraq 200 metr və ya daha uzun məsafə qət edəcək.

# Dövlət Neft Fondu dünyanın ən şəffaf suveren fondları siyahısında ilk beşlikdə qərarlaşıb

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) dünyanın ən şəffaf suveren fondları siyahısında ilk beşlikdə qərarlaşıb.

ARDNF-in İctimaiyyətlə əlaqələr departamentindən AZƏRTAC-a bildirilib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən uğurlu neft strategiyasının önəmli tərkib hissəsi kimi neft və qaz gəlirlərinin indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünün təmin edilməsi məqsədilə yaradılan Dövlət Neft Fondu fəaliyyətə başladığı müddətdən bəri ölkənin sosial-iqtisadi həyatında önəmli rol oynamaqla bərabər, vəsaitlərin idarə edilməsi, idarəçilik, institusional quruculuq, hesabatlılıq və şəffaflıq kimi istiqamətlərdə beynəlxalq səviyyədə örnək qurum kimi tanınaraq ən ali mükafatlara layiq görülüb və ölkəmizin nüfuzunun yüksək səviyyədə qorunub saxlanılmasına əhəmiyyətli töhfə verib.

Suveren fondların şəffaflıq və hesabatlılıq istiqamətində fəaliyyətinin dəyərləndirilməsini həyata keçirən Beynəlxalq İqtisadiyyat üzrə ABŞ-ın nüfuzlu Peterson İnstitutunun (PIIE) tərtib etdiyi və cari ilin fevral ayında nəşr olunan 2019-cu il üzrə Suveren Fondların Şəffaflıq və Hesabatlılıq üzrə qiymətləndirmə cədvəlində Dövlət Neft Fondu 64 suveren fond arasında 92 xal toplayaraq 5-ci yerdə qərarlaşıb.

**Results of the 2019 SWF scoreboard**

| Country | Fund name | Score |
|---|---|---|
| Norway | Norway Government Pension Fund-Global | 100 |
| New Zealand | New Zealand Superannuation Fund* | 94 |
| United States | Permanent Wyoming Mineral Trust Fund | 93 |
| Chile | Economic and Social Stabilization Fund | 92 |
| Azerbaijan | State Oil Fund of the Republic of Azerbaijan* | 92 |
| Canada | Alberta Heritage Savings Trust Fund | 91 |
| Timor-Leste | Petroleum Fund of Timor-Leste* | 91 |
| Chile | Pension Reserve Fund | 89 |
| United States | Alaska Permanent Fund Corporation* | 88 |
| Australia | Future Fund* | 87 |
| United States | New Mexico State Investment Council | 87 |
| Ireland | Ireland Strategic Investment Fund* | 86 |
| Korea | Korea Investment Corporation* | 86 |
| Palestine | Palestine Investment Fund* | 85 |
| Nigeria | Nigeria Sovereign Investment Authority* | 83 |
| United States | Alabama Trust Fund | 82 |
| Panama | Fondo de Ahorro de Panama** | 82 |
| Trinidad and Tobago | Heritage and Stabilization Fund* | 81 |
| Singapore | Temasek Holdings | 79 |
| Angola | Fundo Soberano de Angola* | 77 |
| Australia | NSW Generations Fund* | 77 |
| Spain | COFIDES** | 77 |
| United States | (Texas) Permanent University Fund | 77 |
| United Arab Emirates | Mubadala Investment Company* | 75 |
| China | China Investment Corporation* | 74 |
| France | BPI France Investissement* | 74 |
| France | Caisse des Dépôts et Consignations | 74 |
| United States | Texas Permanent School Fund | 73 |
| Malaysia | Khazanah Nasional Berhad* | 71 |
| Nauru | Intergenerational Trust Fund for Nauru** | 71 |
| Kuwait | Kuwait Investment Authority* | 70 |
| Hong Kong | Exchange Fund | 70 |
| Italy | CDP Equity / Fondo Strategico Italiano* | 70 |
| United States | North Dakota Legacy Fund | 69 |
| Mexico | Budgetary Income Stabilization Fund* | 68 |
| Turkey | Turkey Wealth Fund** | 68 |
| United Arab Emirates | Dubai Holding | 67 |
| United Arab Emirates | Abu Dhabi Investment Authority (ADIA)* | 65 |
| Kazakhstan | Samruk-Kazyna JSC* | 64 |
| Singapore | GIC Private Ltd.* | 64 |
| United Arab Emirates | Investment Corporation of Dubai | 64 |
| Botswana | Pula Fund* | 62 |
| India | National Investment and Infrastructure Fund** | 62 |
| Rwanda | Agaciro Development Fund* | 58 |
| Cyprus | Cyprus Investment Fund** | 57 |
| Iran | National Development Fund of Iran* | 56 |
| Bahrain | Bahrain Mumtalakat Holding Company | 55 |
| Senegal | Fonds Souverain d'Investissements Stratégiques** | 53 |
| Kazakhstan | National Investment Corporation* | 52 |
| Russia | National Welfare and Reserve Fund | 51 |
| Mexico | Fondo Mexicano del Petróleo | 48 |
| Peru | Fiscal Stabilization Fund | 48 |
| Ghana | Ghana Petroleum Funds | 47 |
| Morocco | Ithmar Capital* | 47 |
| Qatar | Qatar Investment Authority* | 46 |
| Saudi Arabia | Public Investment Fund* | 39 |
| Russia | Russian Direct Investment Fund* | 37 |
| United Arab Emirates | Emirates Investment Authority* | 36 |
| Kiribati | Revenue Equalization Reserve Fund | 35 |
| Brunei | Brunei Investment Agency | 30 |
| Algeria | Revenue Regulation Fund | 26 |
| United Arab Emirates | Dubai World* | 24 |
| Libya | Libyan Investment Authority* | 23 |
| Equatorial Guinea | Fund for Future Generations | 11 |
| Average 64 funds | | 66 |

2019-cu il üzrə qiymətləndirmə cədvəli qlobal suveren fondların vəsaitlərinin idarə edilməsi, idarəçilik, dayanıqlılıq, şəffaflıq və hesabatlılıq, eləcə də Santyaqo Prinsiplərinin tətbiqi kimi müxtəlif istiqamətlərin dəyərləndirilməsi əsasında formalaşmışdır. ARDNF 2019-cu il üçün qiymətləndirmədə hər bir kateqoriya üzrə, demək olar ki, maksimuma yaxın bal toplayıb.

Beynəlxalq İqtisadiyyat üzrə Peterson İnstitutu, eyni zamanda suveren fondlar üçün vahid beynəlxalq standartlar toplusu olan Santyaqo Prinsiplərinin tətbiqi ilə bağlı da qiymətləndirmə cədvəli tərtib edib. Bu cədvəl 24 Santyaqo Prinsipindən suveren fondların qiymətləndirmə cədvəlinə uyğun gələn 16 prinsipin tətbiqi və eləcə də onların elementlərin dəyərləndirilməsi əsasında formalaşıb. Dövlət Neft Fondu Santyaqo Prinsiplərinin tətbiqi üzrə qiymətləndirmə cədvəlində də 5-ci mövqedə qərarlaşıb.



ABŞ-ın Beynəlxalq İqtisadiyyat üzrə Peterson İnstitutu 1981-ci ildə təsis edilib və bu qurum özəl və qeyri-kommersiya təşkilatı olub beynəlxalq iqtisadiyyatın araşdırılması sahəsində ixtisaslaşıb. Birləşmiş Ştatların ən nüfuzlu universitetlərindən biri sayılan Pensilvaniya Universitetinin Beynəlxalq elmlər şöbəsinin rektoru Ceyms Makqann tərəfindən hazırlanmış 2020-ci il “Global Go to Think Tank Index” hesabatına əsasən, Beynəlxalq İqtisadiyyat üzrə Peterson İnstitutu ABŞ-ın bir nömrəli “Think Tank”ı statusunu qazanıb və eləcə də 2020-ci il üzrə dünya “beyin mərkəzləri” reytinqində 9-cu mövqedə qərarlaşıb. Eyni zamanda PIIE 2016-2019-cu illər üzrə dünyada Beynəlxalq İqtisadi Siyasət üzrə ən mükəmməl beyin mərkəzi sayılır və bu institut, eləcə də 2020-ci ildə ən mükəmməl idarəçilik kateqoriyasında birincilik statusuna malikdir.

https://www.piie.com/sites/default/files/documents/pb21-3.pdf

## İtkin düşən iki yaşlı uşağın həyatı xilas edilib

Ağdaş Rayon Polis Şöbəsinə müraciət edən Qaraoğlan kənd sakini yaşadıqları evin qarşısında oynayan iki yaşlı övladının itkin düşdüyünü, axtarışlarının nəticəsiz qaldığını bildirərək kömək göstərilməsini xahiş edib. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, polis əməkdaşları azyaşlının qısa vaxtda tapılması istiqamətində kənd ərazisində, eləcə də rayonda dərhal axtarış tədbirlərinə başlayıblar. Həyata keçirilən operativ tədbirlər zamanı iki yaşlı A.B. axşam saatlarına yaxın polis serjantı Rauf Yunusov tərəfindən su kanalının kənarında köməksiz vəziyyətdə tapılıb və ailəsinə təhvil verilib.

Uşağın valideynləri müraciətlərinə operativ reaksiya verərək övladlarının həyatını xilas edən polis əməkdaşlarına dərin minnətdarlıqlarını bildiriblər.


# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

*qəzetinə **2021**-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | (012) 440-46-94, (012) 441-19-91 |
| *“Azərpoçt” ASC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *“Qaya” firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *“Kaspi” MMC* | (012) 432-39-55, (012) 510-82-24 |
| *“Region Press” MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *“Səma-M” MMC* | (012) 594-09-59 |
| *“Ziya” LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *“Pressinform” MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *“City press” MMC* | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



## Azərbaycan Respublikası Baş Prokurorluğu 2021-ci ildə dəftərxana ləvazimatlarının, təsərrüfat mallarının və katriclərin, geyim formasının, avadanlıqların, ofis və kabinet mebellərinin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

**Tender 4 (dörd) LOT üzrə keçirilir:**

LOT - 1. Dəftərxana ləvazimatlarının, təsərrüfat mallarının və katriclərin satın alınması.

LOT - 2 . Geyim formasının satın alınması.

LOT - 3. Avadanlıqların satın alınması.

LOT - 4. Ofis və kabinet mebellərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər.

Malların təchiz olunma müddəti - il ərzində.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: səmərəli tender təklifinə, yüksək keyfiyyətə, müqavilənin vaxtında yerinə yetirilməsinə, iddiaçının maliyyə vəziyyətinə.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə 500 AZN məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada ala bilərlər.

Əlaqələndirici şəxs: Adgözəlov Pərviz Ramazan oğlu
Ünvan: Bakı şəhəri, Nigar Rəfibəyli küçəsi, 7, Tel: 492-64-80
Təşkilat: Azərbaycan Respublikası Baş Prokurorluğu
**VÖEN: 1700354471**
**H/h: AZ11CTRE00000000000003118570**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**
**Budcə təsnifatının kodu:142330**
**Büdcə səviyyəsinin kodu: 7**
İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün elektron müracət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair öhdəliklərin yerinə yetirilməsi, vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son üç ildəki müvafiq işlər üzrə fəaliyyəti haqqında müəssisə tərəfindən təsdiq olunmuş arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 05 aprel 2021-ci il saat 11:00-a qədər, tender təklifi və bank zəmanətini isə13 aprel 2021-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 14 aprel 2021-ci il saat 11:00-da Portal vasitəsilə açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


## Azərbaycanda sutka ərzində koronavirusa 353 nəfər yoluxub

Azərbaycan Respublikasında sutka ərzində koronavirus infeksiyasına 353 nəfər yoluxub, 149 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 236 min 365 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 229 min 591 nəfər müalicə olunaraq sağalıb, 3238 nəfər vəfat edib. Aktiv xəstə sayı 3536 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 645 min 206 test aparılıb. Dünənki test sayı isə 9436-dır.




## Ölkəmizdə 27 mindən çox vətəndaş COVID-19 əleyhinə peyvənd olunub

Martın 5-də Azərbaycan Respublikasında 27 min 73 nəfər yeni koronavirus (COVID-19) infeksiyasına qarşı vaksinasiya olunub.



AZƏRTAC koronavirusinfo.az saytına istinadla xəbər verir ki, yanvarın 18-dən başlayaraq hazırkı dövrədək ölkəmizdə 390 min 489 nəfər COVID-19 əleyhinə peyvəndlənmə prosesində iştirak edib.

Vaksinasiya respublikamızın bütün rayonlarında uğurla davam edir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevə əzizi

**ŞURA MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5238
Sifariş 426
Qiyməti 40 qəpik